**Fazil Məmmədov**

# MİR CƏFƏR ABBAS OĞLU BAĞIROV

*(tərcümeyi-hala dair ştrixlər, yaxud tarixin həqiqəti- həqiqətin tarixi)*

**Bakı – "Nurlan" - 2007**

**Fazil Məmmədov. Mir Cəfər Abbas oğlu Bağırov.**
(*tərcümeyi-hala dair ştrixlər, yaxud tarixin həqiqəti - həqiqətin tarixi)*
**Bakı, "Nurlan", 2007, 144 səh.**

**M <u>4702000000 – 68</u>** ***Qrifli nəşr***
**N – 098 - 2007**

**© "Nurlan", 8007**

## BÖYÜK HƏYATIN BAŞLANĞICI VƏ BƏZİ ANLARI

XVII əsrin sonlarından bəri Qubada bir neçə Bağırovlar ailəsi yaşamağa başlamışdır. Əvvəllər onların bir-birilə heç bir qohumluq əlaqələri olmamışdır. Sonrakı dövrlərdə isə belə əlaqələr yaransa da, yenə hər bir ailə tam müstəqil olaraq əlahiddə şəkildə çoxalıb möhkəmlənmiş və onların hərəsi bir nəslə çevrilmişdir.

Belə ailələrdən birinin başçısı Hacı Mir Bağır Mir Əli oğlu olmuşdur. Mir Bağır kişi dövrünün ziyalı qadınlarından olan Hacı Fatmanisə ilə ailə qurmuşdur. Onların ilk övladı Mir Abbas Mir Bağır oğlu dünyaya göz açdıqdan sonra indiki Bağırovlar ailəsinin əsası qoyulmuşdur. Sonralar bu ailədə daha 6 oğul (Mir Ağa, Mir Zeynalabdin, Mir Talıb (birinci nigahdan), Mir Həmzə, Mir Murtuz və Mir Cəfər (ikinci nigahdan) doğulmuşlar.

Sonrakı illərdə Mir Bağır kişi və onun 7 oğlu müxtəlif illərdə öz əcəlləri ilə dünyalarını dəyişmişlər. Qardaşların ailələri isə Qubada və ətraf ərazilərdə yaşamaqda davam etmişlər. Mir Abbas kişi iki dəfə evlənmişdir. Mir Ağa, Mir Zeynalabdin, Mir Talıb M.C.Bağırovun doğma, Mir Həmzə, Mir Murtuz, Mir Heydər isə ögey əmiləri olmuşdur.

Mir Abbas Mir Bağır oğlu ailənin ilk övladı kimi birinci evlənərək varlı ailədən olan Hacı Yaxşıxanımla ailə qurmuşdur. Onun ailəsində 6 övlad - ilkin Mir Musa (o, vaxtilə xaricdə təhsil almış, sonralar uzun illər (1934-1940) xalq maarifi sahəsində fədakarlıqla çalışmışdır), Mir İbrahim (Zaqafqaziya dəmir yolu idarəsinin rəisi vəzifəsində işləmiş və neft sənaye sahəsində çalışmışdır. Mir Məsumə (dindar qadın olmuşdur, 1947-ci ildə vəfat etmişdir). 1943-cü ildə vəfat etmişdir), Seyid Fatma (dindar Həsən bəyin həyat yoldaşı olmuş və həmişə evdarlıq etmişdir).

Mir Heydər (dini təhsil almış, lakin cavan ikən (1922-ci ildə) vəfat etmişdir) və sonbeşik Mir Cəfər böyümüşdür.

Mir Cəfər Abbas oğlu Bağırov 1896-cı il sentyabr ayının 17-də Quba şəhərində yoxsullaşmış zadəgan və müsəlmanlığın şiə məzhəbinə qulluq edən ruhani ailəsində doğulmuşdur. Ailənin çoxuşaqlı olması, onları yaşatmaq imkanlarının məhdudluğu gənc ata-anaya övladlarının təhsil almaqları barədə düşünməyə belə imkan verməmişdir. Valideynlər təkcə onu bacarmışlar ki, uşaqları Quranın ayrı-ayrı surələrini, ayələrini və duaları dürüst əzbərləməyə, habelə dini ibadət qaydalarını dəqiq öyrənməyə məcbur etsinlər. Elə bu səbəblərə görə də yeniyetmə Mir Cəfər yalnız 13 yaşı olanda böyük bir çətinliklə iki sinifli kənd ibtidai məktəbinə daxil ola bilmişdir. Gəncin biliklərə yiyələnmək üçün göstərdiyi güclü və ardıcıl səyi, ehtiraslı oxumaq arzusu və coşğun çalışqanlığı müəllimlərinin diqqətindən yayınmamışdır. O, xeyirxah məktəb rəhbərliyinin köməyilə Quba şəhərindəki 4 sinifli Ali ibtidai məktəbə qəbul edilmişdir. 1913-cü ildə məktəbi müvəffəqiyyətlə bitirən gənc Mir Cəfər, yenə həmin alicənab

müəllimlərin köməyilə Petrovek şəhərindəki (indiki Dağıstan Muxtar Respublikasının mərkəzi Mahaç-qala şəhərində) iki illik pedaqoji kursda dövlət hesabına oxumağa başlamışdır.

1915-ci ilin fevral ayında iki illik kursları vaxtından əvvəl oxuyub başa çatdıran gənc həqiqi hərbi xidmətə çağırılmış kənd müəllimini əvəz etmək hüququnu qazanaraq müstəqil həyata qədəm qoymuşdur.

1915-ci ilin fevral ayından həmin ilin payızına kimi Xudat dəmiryolu stansiyasındakı kənd məktəbində xalq müəllimi kimi işləyən gəncin bu müddətdə xalqla yaratdığı canlı əlaqələri, işgüzar münasibətləri, əhaliyə göstərdiyi yaxınlıq və doğmalıq yerli polisin nəzərindən yayınmamışdır. Məktəbin rəhbərliyi və yerli polis çox incə düşünülmüş bir bəhanə ilə “narahat” gənci “müəllimə çox zəruri ehtiyac olan” uzaq ləzgi kəndinə-Necəfkəndə işləməyə göndərməyə nail olmuşlar. Bu əslində gənc müəllimin xalqa göstərdiyi istiqanlı, doğmalıq və canıyananlıq hərəkətlərinə görə onun birinci sürgünü idi. “Nadinc” gəncin inqilabi fəaliyyəti də elə bu dövrdən etibarən başlamışdır. Bu zaman dövrün özü bir çox əlamətlərinə görə nəzərə çarpır və insanları yeni həyat tərzi uğrunda mübarizəyə çağırırdı.

Bu dövr Bakı bolşeviklərinin Lenin və Stalinin göstərişlərini həyata keçirərək, zəhmətkeşləri imperialist müharibəsini vətəndaş müharibəsinə çevirmək uğrunda mübarizəyə səfərbər etdikləri, fəhlələrin kütləvi tətil hərəkatını təşkil etdikləri və bu hərəkatın yalnız Bakı şəhərinin neft mədənləri və zavodlarını deyil, Azərbaycanın rayonlarını da əhatə etdiyi bir dövr idi. Bakı bolşeviklərinin bilavasitə inqilabi mübarizəsinin təsiri ilə, çar məmurları, yerli dərəbəylər və kapitalistlərin zülmü altında inildəyən Azərbaycan xalqının ağır həyatının təsiri ilə M.C.Bağırovda inqilabi şüur oyanmış və möhkəmlənmişdir. Gənc “nadinc” müəllim Nəcəfkəndə gələn ilk gündən kəndlilər arasında maarif, inqilabı təbliğat işi aparmağa başlamışdır. O, yoxsul ləzgi kəndlilərinin ağır vəziyyətindən danışmış, bu acınacaqlı şəraitdən çıxmaq yolları haqqında söhbətlər aparmışdır.

M.C.Bağırov Xudat stansiyasındakı məktəbdə olduğu kimi, Nəcəfkənddə də səmərəli pedaqoji fəaliyyətlə yanaşı olaraq əhali arasında qızğın siyasi işini davam etdirmişdir. O, kəndlilərə savad öyrətmək, məktəbə Azərbaycanlı qızları cəlb etməkdən əlavə, əhalinin ehtiyaclarının və hüquqsuzluqlarının səbəblərini izah etmiş, kəndliləri onların daimi zülmkarları və istismarçıları ilə inqilabi mübarizə yoluna sövq etmişdir. Bütün bunlar isə o dövrdə son dərəcə dözülməz “yeniliklər” idi. Bu “yenilikləri” diqqətlə izləyən polis orqanları M.C.Bağırovun fəaliyyətini xüsusi nəzarət altına alaraq əks tədbirlər görmək üçün baş sındırmışlar. Bu dəfə gənc inqilabçını ram etmək üçün onu “irəli” çəkib 1916-cı ilin yayında Qubanın yəhudi qəsəbəsindəki iki sinifli ibtidai məktəbə müdir təyin edirlər.

Gənc müəllimin qaynar inqilabi fəaliyyəti burada da özünə münbit şərait tapır, yoxsul yəhudi əhalisi ilə sıx əlaqəyə girərək təbliğat və təşviqat işlərini sürətlə genişləndirir. Bu zaman Rusiyada baş verən Fevral inqilabi hər yerdə olduğu kimi Qubada da yoxsul kəndlilərlə, əməkçi kütlələrlə yerli bəylərin, varlı

ruhanilərin və onların müdafiəçisi olan hakimiyyət orqanları arasında olan ziddiyyətləri daha da kəskinləşdirmişdir. Gənc xalq müəllimi M.C.Bağırov belə bir şəraitdə Qubanın yəhudi qəsəbəsində komissar vəzifəsinə irəli çəkilmiş, az sonra isə yoxsul kəndlilər və inqilabçı əsgərlər tərəfindən Quba qəzasının İcraiyyə Komitəsinə seçilmişdir.

1917-ci ilin mart ayında Bakıdan müxtəlif partiyaların təbliğatçı və təşviqatçıları əhali arasında siyasi-kütləvi iş aparmaq üçün Qubaya gəlmişdir. M.C.Bağırov bu zaman bolşevik nümayəndələri ilə yaxından tanış olmuş və onlarla sıx əlaqə yaratmışdır. Qubaya gələnlər içərisində sonralar -1918-ci ildə müsavatçılar tərəfindən xaincəsinə qətlə yetirilmiş Müqtədir Aydınbəyov, 1919-cu ildə Saritsinin azad edilməsi uğrunda döyüşlərdə qəhrəmanlıqla vuruşaraq həlak olmuş Bəşir Aşurov və başqaları olmuşdur. 1917-ci ilin mart ayında M.C.Bağırovun həyatında çox mühüm və ciddi hadisə baş vermişdir. O, Quba şəhərindəki özəl aptekdə gizli fəaliyyət göstərən partiya özəyində bolşeviklər partiyasının sıralarına qəbul olunmuş və ilk gündən təşkilatın fəaliyyətində yaxından iştirak etməyə başlamışdır.

O dövrdən etibarən gənc inqilabçının bütün həyatı və fəaliyyəti Lenin-Stalin partiyası ilə qırılmaz tellərlə bağlı olmuşdur.

Bakı və Azərbaycan bolşevikləri həmin dövrdə İ.V.Stalinin göstərişləri üzrə xalq kütlələri arasında böyük siyasi tərbiyə işi aparır, onları hakimiyyət uğrunda çətin döyüşlərə hazırlayır və sıralarını sıx birləşdirirdi. Bu mübariz çağırışlar və əməllər Azərbaycanın ən ucqar kəndlərinə qədər yayılmışdı. Bu zaman M.C.Bağırov digər bolşeviklərlə birlikdə özünün bütün qüvvəsini Qubada saldat və kəndli deputatları sovetinin yaradılması uğrunda mübarizəyə sərf etmişdir. O, proletariatla kəndlilər ittifaqının möhkəmlənməsi, xan və bəylərin mülklərini kəndlilərin mütəşəkkil surətdə zəbt etməsi işini təşkil etmək uğrunda ciddi bolşevik təbliğatı aparmışdır. Yerli mülkədarlar və qolçomaqlar tərəfindən göstərilən ciddi təqiblərə və basqınlara baxmayaraq başda M.C.Bağırov olmaqla Quba bolşevikləri ruhdan düşməmiş, çətinliklərdən əsla qorxmamış və mürtəce qüvvələrin hər cür hiylələrinə qarşı inamla mübarizə aparmışlar. Bolşeviklərin, o cümlədən M.C.Bağırovun rəhbərliyilə yaradılan İnqilab Şurası ən yoxsul kəndli və soldatların mübarizəsinə başçılıq edərək Qubada hakimiyyəti öz əlinə ala bilmişdir. Bu zaman İnqilab Şurasının döyüşçü dəstələri yaradılmış və mülkədar torpaqlarının zəbt edilməsi işi həyata keçirilmişdir. Beləliklə, yeni yaradılmış İnqilab Komitəsi rəsmi surətdə elan edilmişdir. M.C.Bağırov bu komitənin sədr müavini olmaqla Quba qəza polis idarəsinin silah-sursat anbarlarının ələ keçirilməsi, mülkədarlardan çar ordusunun kapitanı Əlibəy Zuzikskinin, Şixlərskinin, Əfəndiyevlərin, Musabəyovların və bir sıra başqalarının malikanələrinin və əmlakının zəbt edilməsi işinə bilavasitə rəhbərlik etmişdir. Bu hadisələrdən bir qədər əvvəl Bakı kommunasının süqutuna çalışan feodalların Qubadan göndərdiyi hərbi qüvvələrin geri dönərkən yolunun kəsilməsi, həmçinin

yerli mülkədarların, ağa, xan və bəylərin tərksilah edilib sıxışdırılması inqilabi mübarizəni daha da kəskinləşdirmişdi. Sovet Qubası əksinqilabçı qüvvələrin gözündə “qara su”ya çevrilmişdi. Bu mürtəce qüvvələr nəyin bahasına olursa-olsun Qubada qürurla dalğalanan Sovetlər bayrağını endirmək və inqilabi qüvvələri bütünlüklə məhv etmək üçün gecə-gündüz vurnuxurdular.

Sovet Qubası isə öz varlığı ilə qonşu rayonların kəndli kütləsini yeni həyat uğrunda mübarizəyə səsləyir, öz nümunəsilə onları qələbəyə ruhlandırırdı. Lakin bu mütərəqqi ınqilabi hadisələri qəzəblə izləyən, malı-mülkü əlindən çıxdığı uçün dəhşətə gələn qüvvələr qisas almaq, hər şeyi geri qaytarmaq, inqilabçıları isə bütünlüklə və tamamilə məhv etmək arzusu ilə yaşayır və bunun üçün əllərindən gələni edirdilər

Cənubi Dağıstandan və Şamaxıdan Quba xanlarına, ağalarına və bəylərinə köməyə gələn əksinqilabçı quldur dəstələri 1918-ci il may ayının 1-də gecə saat 3-də şəhərə hücum edərək Sovetlərin tərəfdarlarını amansızcasına məhv etməyə başlamışlar. İnqilabçı saldat və kəndlilərin kiçik bir dəstəsi başda İnqilab Komitəsinin sədr müavini M.C.Bağırov olmaqla düşmən qüvvələrə qarşı cəsarətlə mübarizə aparmışdır. Lakin bütün səylərə baxmayaraq Sovet Qubasını 3 gün müdafiə etmək mümkün olmuşdur. Qubanı müdafiə edənlərin ona hücum edənlərdən dəfələrlə az olması, Quba Sovetlərinə soxulmuş Qoberidzenin, Çurayevin, Sadovskinin və başqalarının satqın çıxması, onların müsavatçılarla apardıqları gizlin danışıqlar öz acı nəticələrini göstərmişdir. Quba müdafiəçilərinin inqilabçı dəstələri 200-dən çox mübariz döyüşçüsünü qurban verərək Xaçmaz dəmiryolu istiqamətində şəhəri tərk etməyə məcbur olmuşlar. Elə bu zaman Bakıdan qayıdarkən yolu kəsilmiş müsavatçı mülkədarlardan ibarət vəhşiləşmiş silahlı dəstələr, habelə son günlər gizlinə çəkilmiş muzdlu quldurlar şəhərə daxil olaraq günahsız əhalini qanına qəltan etməyə başlamış, ümumiyyətlə 1500-dən çox sadə zəhmətkeşi qırmışlar.

**Haşiyə:** Bu qırğın zamanı Stepan Şaumyanın tapşırığı ilə Qubaya göndərilən Amazasnın quldur dəstəsi tərəfindən M.C.Bağırovun 70 yaşlı əmisi Mir Talıb, onun oğlu Mir Həşim və onların yeznəsi Hacı Heybət də vəhşicəsinə qətlə yetirilmişdir.

Bax: Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, f.l, siy.405, iş.107, s.8.

Lakin Qaragüruhun qələbəsi çox çəkməmişdir. Quba yoxsulları mübariz Bakı fəhlələrinin yaxından köməyi ilə yenidən hakimiyyəti ələ almış, fəhlə saldat və kəndli Sovetlərini bərpa etmişlər.

1918-ci ilin böhranlı iyun günlərində-Azərbaycan xalqının xarici ölkə quldurlarına və onların satqın müsavat-daşnaq və eser-menşevik agentlərinə qarşı qəhrəmanlıqla mübarizə apardığı çağlarda M.C.Bağırov Bakı şəhərində mübariz bolşeviklər dəstəsi sırasında olaraq, şəhərin türk-müsavat quldur dəstələrindən müdafiəsində fəal iştirak etmişdir.

Bakı şəhərində sovet hakimiyyətinin müvəqqəti olaraq süqutundan sonra Bakı bolşevikləri V.İ.Leninin göstərişilə əsas qüvvələrini Həştərxana köçürməyi qərara alırlar. Bundan məqsəd yeni kömək alıb Bakıya qaytarmaq və Sovet hakimiyyətini bərpa etmək idi. M.C.Bağırov bu qərarın yerinə yetirilməsi işində fəal iştirak etmək məqsədilə Petrovun dəstəsindən qalanlarla birlikdə Həştərxana getmişdir. Burada o, Dəmir polkun partiya kollektivində məsul katib və qarnizon partiya komitəsi rəyasət heyəti üzvü vəzifəsində qısa müddət işlədikdən sonra müsəlman sovet polkunun hərbi siyasi komissarı təyin edilmişdir. Bu polk sonradan 290-cı polk adlandırılmışdır.

Beləliklə M.C.Bağırovun inqilabi fəaliyyətinin mühüm sahə olan bütün Cənubun və Xəzər hövzəsinin əks-inqilabçılardan qorunması kimi ağır döyüş sınaqlarından keçən yeni dövrü başlanmışdır. M.C.Bağırov 290-cı polkun başında duraraq 1919-cu il mart ayının 12-də Həştərxanda baş vermiş əks-inqilabı üsyanın yatırılmasında yaxından iştirak etmişdir. 33-cü Kuban diviziyasının tərkibində olan 290-cı polk bundan sonra may ayında Voronejə göndərilmiş və 1919-cu il payızın axırlarına qədər general Mamontovun quldur dəstələrinə qarşı Millerovo və Liski uğrunda döyüşlərdə iştirak etmişdir.

M.C.Bağırov bu hadisələrdən 25 il sonra 290-cı polkun qəhrəmanlıq salnaməsi haqqında yazmışdır:

- Milli hərbi işçilərimiz, hələ vətəndaş müharibəsinin alovu içərisində yetişməyə başladı. Sovet hakimiyyəti uğrundakı vuruşmalarda Azərbaycan xalqının ən yaxşı oğulları onun ən yaxşı övladı iştirak etdi. 1918-ci ildə Bakıda təşkil edilmiş Qızıl qvardiya əsgəri hissələr öz pəncəsini Bakı neftinə uzadan alman imperialistlərinin şiddətli təzyiqinə qarşı dirənib dayandı. Alman-türk işğalçıları Bakını işğal etdiyi günlərdə Qafqazdan çıxarılıb köçürülən azərbaycanlılar, Volqa boyu tatarları və dağıstanlılardan ibarət olan 290-cı müsəlman polkunun göstərdiyi igidlik, xalqımızın hərbi tarixindəki parlaq səhifələrdən biridir.

Bu polk 1918-ci ildə Həştərxanda təşkil edilib Sergey Mironoviç Kirovun rəhbərliyi ilə bərkişib bişginləşən XII ordu sırasına daxil idi. 290-cı müsəlman polku 1919-cu ildə Həştərxanda ağqvardiyaçıların mart ayındakı üsyanının yatırılmasında çox böyük rol oynamışdır.

Bu polkda möhkəm bolşevik yadrosunun yaradılması sayəsində bu polk başqa hissələrdən öz möhkəm birlik və intizamı ilə döyüşçülərin yüksək siyasi şüuru ilə ayrılırdı. Bu vəziyyət, Qızıl Ordunun yenicə törənib əmələ gəldiyi ilk illərdəki şəraitdə polku başqa hissələrdən xüsusilə ayırır və şöhrətləndirirdi. Ölkəmizin cənubunda vəziyyəti zəifləmək bilməyən bir diqqətlə izləyib nəinki cəbhələrin, hətta ayrı-ayrı bölmələrin vəziyyətindən yaxından xəbərdar olmaqla hamını heyrətə salan V.İ.Lenin 290-cı müsəlman polkunun daxil olduğu 33-cü Kuban diviziyasının döyüş qabiliyyətinə yüksək qiymət verirdi. XI Ordunun inqilabi-hərbi soveti Leninə teleqram göndərib 33-cü diviziyanın birinci

briqadasını (290-cı müsəlman polku da bu briqadaya daxil idi) Bakıya ediləcək hücumda iştirak etmək üçün bu ordu sırasında saxlamağa izn verməsini xahiş etmişdi. Lenin bu teleqramın üstünə aşağıdakı sözləri yazır: "Respublika İnqilabi-hərbi Sovetinə: bu, **ÇOX** mühümdür, 33-cü diviziyanın bu hissəsini onlara vermək və bu barədə dərhal baş komandanlıqdan Həştərxana **nöqtəsi-nöqtəsinə dürüst bir** teleqram göndərmək lazımdır".

Cənub cəbhəsində 33-cü diviziya ağqvardiyaçıların Don çayı ətrafında baş vermiş böyük bir üsyanını yatırtmaq vuruşmalarında iştirak edir. Lenin bu diviziyanın üsyan baş vermiş yerə gəlib çatdığını xəbər alan kimi, 1919-cu il mayı ayının 15-də Respublika İnqilabi-hərbi Sovetinin sədrinə müstəqim teleqrafla belə yazır: "Üsyanı yatırmaq üçün ciddi tədbirlər görüldüyünə və xüsusilə 33-cü diviziyanın bu işə təyin edildiyinə çox şadam".

Lenin sonralar da 33-cü diviziyanın hərbi əməliyyatını diqqətlə izləyir və cənub cəbhəsinin İnqilabi-hərbi Sovetindən tələb edir ki, üsyanı yatırtmaq üçün bu diviziyanın hərbi əməliyyatı haqqında ona məlumat verilsin.*

İndi Rusiyanın cənubunu əksinqilabçı ağqvardiyaçı quldur dəstələrindən təmizləmək kimi şanlı bir yol keçmiş 290-cı müsəlman polkunun döyüş fəalliyyətindən ayrı-ayrı hadisələri xatırlamaq maraqlı olmaya bilməz.

Bu polk ilk hərbi sınaqdan, cənub cəbhəsində 8-ci orduya daxil olduğu zaman 1919-cu ilin iyun ayının əvvəllərində Millerovo önlərində çıxmışdır. O zaman orada vəziyyət çox ağır və gərgin idi. Bir neçə qatarımızı yoldan çıxarıb aşıran ağqvardiyaçılar 290-cı müsəlman polkunu da tələyə salmaq istədilər. Lakin buna görə bilmədilər. 290-cı müsəlman polkunun döyüşçüləri qatar gedə-gedə vaqonlardan tullanıb vuruşmağa başladılar və düşməni dəf edib onu gecə yarısına qədər qovdular.

Polk sayca çox olan düşmən qüvvələrini dəfələrlə dəf etməli olmuş və həmişə vuruşmalardan şərəflə çıxmışdır. Bir dəfə Svinaya stansiyası önlərində ağqvardiyaçıların iki polk qoşununun təzyiqinə qarşı təqribən 5 saat dirənib dayanmış və topçu hissəsinin köməyilə mühüm bir dəmiryol xəttinə yol açmaq istəyən düşməni dəf etmişdir. 1919-cu ilin avqust ayında Evstratovka stansiyası önlərindəki başqa bir vuruşmada müsəlman polkunun əsgərləri, denikinçilərin nəzərində çox davamlı hissə sayılan bir təlim polkunu tamamilə qırmışdılar.

Bu polk 1919-cu ildə Don ətrafında Liski önlərində Mamontovun tar-mar edilməsində mühüm rol oynamış, təkcə bir vuruşmada 1500 əsir almış və cənub cəbhəsində düşməni əzib dağıtmaq üçün Stalin yoldaşın hazırladığı strateji planı həyata keçirən Qızıl Ordunun şanlı zəfər yürüşü günlərində: Liski, Millerovo və Luqansk şəhərlərilə Ukrayna və Dones hövzəsinin başqa şəhərlərinin alınmasında iştirak
etmişdir. Bu vuruşmalarda azərbaycanlı əsgərlər qanlarını, canlarını əsirgəmədilər.

---

*XXXIV Lenin məcmuəsi, səh. 127, 138, 144.

Bir çox silah yoldaşlarımız vuruşma meydanında şərəflə həlak oldular. Lakin sağ qalanlar öz əsgərlik vəzifələrinə sonuna qədər sadiq qalıb, döyüş bayraqlarını yüksəklərə qaldırır və irəliləyirdilər.

Hərbi gənclərimiz 290-cı müsəlman polkunun tarixini bilməli və onun döyüş ənənələrindən dərs almalıdırlar.

Bağırov M. C. Azərbaycan Sovet Sosialist Respublikasınm yeni hüquq və vəzifələri. 1944-cü il 18 fevralda Ümumbakı partiya aktivindəki məruzənin qısa stenoqramı. - B.: Azərnəşr. -1944. - s. 22-24.

1919-cu ilin axırlarında M.C.Bağırov S.M.Kirtvun təklifi ilə Qafqaz istiqamətlərindəki cəbhələrdə istifadə olunmaq üçün Həştərxana geri çağırılır. O, burada inqilab fədailəri V.V.Kuybışev və M.V.Frunze ilə görüşüb yaxından tanış olur və birgə fəaliyyətə başlayır. M.C.Bağırov M.V.Frunzenin qərargahında işləyərkən bir müddət Volqada, Saritsın istiqamətində gedən döyüşlərdə vuruşur. Bundan az sonra XI Ordunun Hərbi İnqilab Şurası yanında Xüsusi təyinatlı dəstənin təşkili ona tapşırılır.

M.C.Bağırov bu dəstənin başında duraraq yesaul Sveçnikovun ağqvardiyaçı dəstələrinin və general Tolstoyun quldur dəstələrinin darmadağın edilməsində, 1920-ci ilin yanvar ayında isə Kizlyar şəhərinin tutulmasında yaxından iştirak edir.

1920-ci ilin yazında M.C.Bağırov XI Ordunun Hərbi, İnqilab Şurasının Müvəkkili kimi xüsusi ekspedisiya korpusu ilə Mahaç-Qalaya gələrək Cənubi Dağıstanı və Quba qəzasını əks-inqilabçı quldur dəstələrindən təmizlədikdən sonra may ayında yenidən Bakıya qayıdır.

Azərbaycanda sovet hakimiyyəti qurulan kimi partiya və hökumət M.C.Bağırovu Qarabağ vilayətinə Vilayət İnqilab Komitəsinin sədr müavini və Hərbi İnqilab Şurasının müvəkkili vəzifəsinə göndərir.

Qarabağ vilayəti isə bu zaman ətrafında günahsız əhalini vəhşicəsinə qıran əksinqilabçı müsavatçı-mülkədarlar qüvvələr toplaşmış general Nuru Paşanın quldur dəstələri ilə doldurulmuşdu. M.C.Bağırov burada əksinqilabi üsyan şəraiti ilə üzləşir və quldurların əlindən xoş bir təsadüf sayəsində çıxa bilir. O, həyatını labüd təhlükə qarşısında qoyaraq yerli kəndlilərin köməkliyi ilə Qarabağ düzənliyini və Kür çayını keçərək Ucar stansiyasına gələ bilir və burada XI ordunun Hərbi İnqilab Şurası ilə birgə üsyanı yatırmaq üçün tədbirlər hazırlayır. Az sonra qızıl əsgər və kəndlilərdən ibarət olan kiçik dəstə ilə Qarabağa yenidən gedən M.C.Bağırov oraya toplaşmış əks-inqilabçı qüvvələrin darmadağın edilməsinə müvəffəqiyyətlə nail olur.

Hərbi İnqilab Şurası Qarabağ üsyanı yatırıldıqdan sonra M.C.Bağırova aşağı Qarabağda Azərbaycan diviziyasının 2-ci atıcı briqadasını təşkil etmək tapşırığını verir. Tapşırığı yerinə yetirdikdən sonra 1920-ci ilin payızında Bakıya qayıdan M.C.Bağırov əvvəlcə Azərbaycan diviziyasının hərbi komissarı və sonra da həmin diviziyanın Hərbi Tribunalığının sədri və XI Ordu Tribunalı sədrinin müavini sifətilə birinci Azərbaycan milli qoşun hissələrinin yaradılması və

hazırlanması üzərində çalışır. 1921-ci ilin fevral ayında M.C.Bağırov əks-inqilabla mübarizəyə başçılıq edən Azərbaycan Fövqəladə Komisyonunun (AFK) sədri təyin olunur. M.C.Bağırov Lenin-Stalin işinə sadiq, sarsılmaz bolşevik, xalqın sədaqətli xadimi kimi Azərbaycan Fövqəladə Komisyonunun sədri vəzifəsində işlədiyi 7 il ərzində Oktyabr sosialist inqilabı nailiyyətlərini sayıqlıqla qorumuş, vətən xainlərinə qarşı amansız mübarizə aparmış, yeni məzmunlu kəşfiyyat işini təşkil etmiş və onu möhkəmləndirmişdir. O, eyni zamanda bir sıra başqa məsul vəzifələr də daşımışdır. Xalq Daxili İşlər komissarı, Xalq Yollar Komissarlığının müvəkkili, Azərbaycan SSR Xalq Komissarları Sovetin sədrinin müavini vəzifələrində çalışmışdır.

M.C.Bağırov 1927-ci ildə Zaqafqaziya Federasiyası su təsərrüfatı idarəsinin rəisi vəzifəsinə təyin olunur və iki ildən sonra partiyanın qərarı ilə Azərbaycan Dövlət Siyasi İdarəsinin sədri vəzifəsində çalışmağa başlayır. Bu vəzifədə o, 1929-cu ilə kimi işləyir. 1930-cu ildə M.C.Bağırov ÜİK(b)P MK-nin sərancamına çağrılır və ÜİK(b)P MK yanında marksizm-leninizm kursunda oxumağa göndərilir.

M.C.Bağırov 1932-ci ildə ÜİK(b)P MK yanında markisizm-leninizm kursunu bitirdikdən sonra, bir müddət ÜİK(b)P MK-nin məsul təlimatçısı vəzifəsində işləyir və sonra həmin ilin axırlarında Azərbaycan SSRİ Xalq Komissarları Sovetinin sədri vəzifəsinə seçilir.

1933-cü ildə M.C.Bağırov Azərbaycan K(b)P MK və BK-nın birinci katibi seçilir və bu vəzifələrdə 1953-cü ilin aprel ayına kimi yorulmadan çalışaraq Azərbaycan partiya təşkilatına rəhbərlik edir.

M.C.Bağırov ÜİK(b)P XVII qurultayında ÜİK(b)P MK üzvlüyünə namizəd, XVIII və XIX qurultaylarda isə ÜİK (b)P- Sov. İKP MK üzvü, Sov.İKP MK-nın 1953-cü mart ayının 15-də keçirilən plenumunda Sov.İKP MK Rəyasət Heyəti üzvlüyünə namizəd seçilmişdir. O, 1953-cü il aprel ayının 18-də keçirilən Azərbaycan SSR Ali Sovetinin sessiyasında Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsinə təyin edilmiş, həmin günlərdə keçirilən Azərbaycan KP MK-nin IV plenumunda Azərbaycan KP MK Büro üzvü qalmaqla yeni vəzifəyə seçilməsilə əlaqədar olaraq Azərbaycan KP MK katibi vəzifəsindən azad edilmişdir.

Bu illər ərzində M.C.Bağırov Bakı bolşevik təşkilatının şanlı Stalin ənənələrini göz bəbəyi kimi qoruyub onu daha da zənginləşdirmişdir. Azərbaycan partiya təşkilatı onun rəhbərliyi altında ÜİK(b)P MK ətrafında möhkəm birləşmiş, bolşeviklər partiyasının və sovet xalqının sevimli rəhbəri İ.V.Stalinə sonsuz sədaqətli olan Lenin-Stalin partiyasının sadiq, mübariz və qabaqcıl dəstəsinə çevrilmişdir.

Bolşevik partiyasının sadiq oğlu və Stalin yoldaşın sədaqətli şagirdi olan M.C.Bağırov Azərbaycan partiya təşkilatının və respublikanın çoxmillətli zəhmətkeşlərinin Lenin-Stalin ənənələri ruhunda, komminist partiyasına, sovet hökumətinə sonsuz məhəbbət və sədaqət ruhunda tərbiyələnməsi üçün bütün ömrü boyu fədakarlıqla çalışmışdır.

Böyük sovet dövlətinin millətləri, o cümlədən Zaqafqaziya xalqları arasında sarsılmaz dostluğun, Azərbaycan xalqının böyük rus xalqına məhəbbətinin möhkəmlənməsi, Lenin-Stallin milli siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsi sahəsində Mir Cəfər Bağırovun xidmələri misləgəlməzdir. Xalqımız onun rəhbərliyi altında Sovetlər ölkəsini sosialist əsaslar üzrə yenidən qurmaq haqqında Stalinin göstərişlərini yerinə yetirərək mədəni və təsərrüfat quruculuğu sahəsində çox ciddi və böyük qələbələr qazanmışdır.

M.C.Bağırov özünə xas olan bolşevik fədakarlığı ilə Sovet xalqının alaman-faşist işğalçılarına qarşı apardığı Böyük Vətən müharibəsi illərində Azərbaycan partiya təşkilatını, fəhlələrini, kolxozçuları və ziyalılarını Stalinin "Xalqın bütün qüvvələrini – düşmənin darmadağın edilməsi işinə" çağırışını şərəflə yetirmək üçün var qüvvəsini sərf etmişdir.

M.C.Bağırov Zaqafqaziya cəbhəsi Hərbi Sovetinin üzvü sifətilə Qafqaz sıra dağları ətəyində düşmənin darmadağın edilməsi haqqında Stalin planının həyata keçirilməsində bilavasitə ən fəal surətdə iştirak etmişdir.

Şanlı Bakı neftçiləri müharibə illərində Qızıl Ordunun qüdrətli texnikasını yanacaqla təmin etmək kimi çox çətin və son dərəcə məsul vəzifəni namusla yerinə yetirdilər. Cəbhə arası kəsilmədən Bakıdan benzin, neft və yağ alırdı. Azərbaycan kolxozçuları da can-başla çalışaraq ən mühüm təsərrüfat-siyasi vəzifələri yerinə yetirmişdilər.

Böyük Vətən müharibəsinin ən ağır günlərində, alman quldur dəstələri Qafqaz dağları ətəklərinə gəldikləri zaman Stalinin göstərişi üzrə gürcü, erməni və Azərbaycan milli qoşun birləşmələri təşkil olunmağa başladı. Bu çətin və ağır işlər bilavasitə M.C.Bağırovun rəhbərliyi altında müvəffəqiyyətlə həyata keçirilirdi. Min kilometrlərlə uzanan cəbhə boyunda vuruşan qüdrətli sovet texnikası aramsız olaraq yanacaq məhsulları ilə təchiz olundu, Azərbaycan milli diviziyaları qısa bir vaxtda təşkil olundu, qanlı döyüş cəbhələrində millətə şərəf gətirən qələbələrlə cinayət yuvası olan Berlinə qədər gedib çıxdı, mənfur, qanlı planlar qərərgahı Reyxstaqın yerlə yeksan edilməsində iştirak etdi, böyük rəhbərin ümid və etimadını namusla doğrultdu və xalqımızın qəhrəmanlıq salnaməsinə şərəfli səhifələr yazdı.

Müharibədən sonrakı dövrdə respublika zəhmətkeşləri Azərbaycan partiya təşkilatının və onun mübariz rəhbəri M.C.Bağırovun başçılığı ilə dinc quruculuq işlərini özündə təcəssüm etdirən yeni Stalin beşillik planını vaxtından əvvəl yerinə yetirmək, neft və başqa sənaye sahələrini, kənd təsərrüfatını daha da yüksəltmək uğrunda, Azərbaycan xalqının şəkilcə milli, məzmunca sosialist mədəniyyətinin yeni tərəqqisi uğrunda fədakarlıqla mübarizə aparmışlar.

Müharibədən sonrakı beşillik planların bütün əsas göstəriciləri bir qayda olaraq müvəffəqiyyətlə yerinə yetirilmiş, sənaye və kənd təsərrüfatı sahəsində ümumi məhsul buraxılışı müharibədən əvvəlki səviyyəni ötüb keçmişdir. Müharibədən sonrakı illərdə respublikada bir çox ümumittifaq əhəmiyyətli sənaye

müəssisələrinin, o cümlədən Mingəçevir su-elektrik stansiyası, Bakı boru-prokat zavodu, Daşkəsən mədəni kimi böyük müəssisələrin tikilməsinə başlanmışdır. Sumqayıt və Əli Bayramlı şəhərlərində nəhəng tikinti və quruculuq işləri davam etdirilmiş, dünyanın möcüzələrindən sayılan məşhur neft daşlarında işlər son dərəcə geniş miqyas almışdır. Neft hasilatını və emalını daha da artırmaq uğrunda neftçilərin, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını yüksəltmək uğrunda kolxozçu kəndlilərin, sovxoz işçilərinin vətənpərvərlik hərəkatı respublikanın bütün zəhmətkeşlərini əhatə etmişdir.

Böyük Sovetlər ittifaqının zəhmətkeşləri, eləcə də Azərbaycanın fəhlə, kolxozçu və ziyalıları M.C.Bağırovu səmərəli rəhbər partiya və dövlət fəaliyyətini hər an görmüş, yaxşı bilmiş və yüksək qiymətləndirmişlər. Bütün bu xidmətlərinə görə zəhmətkeş xalq M.C.Bağırovu Lenin-Stalin tipli xadim, alovlu vətənpərvər, sənaye və kənd təsərrüfatının daha da inkişafı uğrunda, respublika zəhmətkeşlərinin maddi rifah və mədəni səviyyəsinin yüksəldilməsi yolunda yorulmaq bilmədən çalışan, milli mədəniyyətimizin keşiyində duran, elmimizin gündən-günə çiçəklənməsi üçün daima səy göstərən, xalqımızın şöhrətini qoruyub onu daha da artıran mərd, mətin iradəli, zəkalı, güclü təşkilatçı, qüdrətli rəhbər kimi tanımış və xalqımızın çoxminli tarixində ilk dəfə olaraq onun adını hələ sağlığında qürurla xüsusi rəmzi məna kəsb edən “kişi” sözü ilə əvəz etmişdir.

Vətən M.C.Bağırovun xidmətlərini həmişə yüksək qiymətləndirmişdir. O. 1920-ci ildən başlayaraq müntəzəm olaraq yüksək vəzifələrə seçilmiş, ən çətin və məsul işlərin həyata keçirilməsi ona etibar edilmişdir. Vətən qarşısında xidmətlərinə görə o, beş Lenin ordeni, iki Qırmızı Bayraq ordeni, iki Qırmızı Əmək Bayrağı ordeni, 1-ci dərəcəli Vətən müharibəsi ordeni, Azərbaycan SSR Qırmızı Əmək Bayrağı ordeni ilə, “Qafqazın müdafiəsi üçün”, “1941-1945-ci illərin Böyük Vətən müharibəsində Almaniya üzərində qələbə üçün” medalları və “Fəxri çekist” nişanı ilə təltif edilmişdir. M.C.Bağırov 1937, 1946 və 1950-ci illərdə SSRİ Ali Sovetinin deputatı seçilmiş, birinci və ikinci çağırış SSRİ Ali Soveti Rəyasət Heyətinin, SSRİ Ali Soveti İttifaq Sovetinin üzvü və sədri olmuşdur. Bakı zəhmətkeşləri sadiq stalinçini 1937-1950-ci illərdə Azərbaycan SSR Ali Sovetinə və Bakı şəhər vilayət sovetlərinə dəfələrlə deputat seçmişlər.M.C.Bağırovun vətən qarşısında bir təcrübəli hərbi mütəxəssis, siyasi işçi, zabit kadrı və sərkərdə kimi göstərdiyi xidmətlər də yüksək qiymətləndirilmişdir. Ona 1945-ci ildə hələ müharibə qurtarmamışdan əvvəl Ali Baş Komandanın təqdimatı əsasında SSRİ Ali Sovetinin qriflə işarələnən fərmanı ilə yüksək rütbə - general-polkovnik rütbəsi verilmişdir. Böyük Vətən müharibəsindən əvvəlki və müharibədən sonrakı illərdə SSRİ-də yeni yaradılan müxtəlif mərkəzi təşkilatların, elmi, ədəbi, mədəni cəmiyyətlərin, dövlət yubiley komitələrinin, ensiklopedik nəşrlərin. plan, proqram və nizamnamələrinin, SSRİ tərəfindən təklif olunan bir sıra beynəlxalq sənədlərin işlənib hazırlanmasında M.C.Bağırov fəal sürətdə iştirak etmişdir. Onun SSRİ Konstitusiyasının (əsas

qanununun) (1936), SSRİ hökuməti yanında Kolxoz Şurasının (1940), SSRİ-nin beşillik planlarının ( 1946, 1950) layihələrinin İ.V.Stalinin anadan olmasının 70 illiyini keçirmək üçün yubiley komitəsi tədbirlərinin (1949), Sov. İKP-nin yeni nizamnaməsinin (1952) layihəsinin və bir çox bu kimi mühüm sənədlərin hazırlanmasında və həyata keçirilməsində xüsusi rolu olmuşdur.

Bütün bu geniş və çoxcəhətli fəaliyyətinə görə M.C.Bağırovun adı tarixə təkcə SSRİ miqyasında tanınan partiya və dövlət xadimi kimi deyil, həm də ictimai fəaliyyəti beynəlxalq aləmdə geniş şəkildə məlum olan və yaxşı tanınan bir şəxsiyyət kişi düşmüşdür.

1953-cü il mart ayının 4-dən 5-nə keçən gecə bütün mütərəqqi bəşəriyyətə sonsuz bir kədər və əvəzsiz itki üz verdi - dünya zəhmətkeşlərinin sevimli müəllimi və rəhbəri vəfat etdi (Əslində xaincəsinə öldürüldü demək lazımdır, kitabın sonrakı fəsillərində tarixdə misli-bərabəri olmayan bu ağır cinayətin təşkilatçıları, icraçıları və onların alçaq məqsədləri haqqında ətraflı bəhs ediləcək, oxucuların bu sahədə əldə olan çoxsaylı sənəd, dəlil və sübutlarla bilavasitə tanış olmaları üçün imkan yaradılacaqdır - F.M.).

Bu xəbər bütün dünyanı sarsıtdı. Böyük bir ölkə başdan-başa ağır hüzn aləminə büründü. Ölkənin rəhbərləri İ.V.Stalinin cənazəsi hələ yerdə ikən, onun sarkofağının V.İ.Leninin sarkofağı ilə mavzoleyə yanaşı qoyulmamışdan əvvəl dərhal Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin və SSRİ Ali Soveti Rəyasət Heyətinin birgə iclasını keçirdilər. Mart ayının 6-da işə başlayan birləşmiş iclasda vəziyyətdən çıxış yolları müəyyənləşdirilib müzakirə olundu. Birgə iclasın ilk dəqiqələrində qərara alındı ki, Sov. İKP MK-da hazırda mövcud olan iki rəhbər orqan (MK-nın Rəyasət heyəti və MK-nın Rəyasət heyətinin Bürosu) əvəzinə bir orqan - Sov. İKP MK-nın Rəyasət Heyəti saxlanılsın, partiyaya rəhbərlik işinə böyük operativliyi təmin etmək məqsədilə Rəyasət Heyətinin tərkibi 10 nəfər üzvdən və 4 nəfər üzvlüyə namizəddən ibarət müəyyən edilsin və aşağıdakı tərkibdə təsdiq olunsun:

MK-nın Rəyasət Heyətinin üzvləri - Malenkov Q.M., Beriya L.P., Molotov V.M., Voroşilov K.U., Xruşşov N.S.,

Bulqanin N.A., Kaqanoviç L.M., Mikoyan A.İ., Saburov M.Z., Pervuxin M.Q. yoldaşlar.

Sov. İKP MK Rəyasət Heyətinə namizədlər - Şvernik N.M., Panomarenko P.K., Melnikov L.Q., Bağırov M.C. yoldaşları.

Qeyd etmək lazımdır ki, M.C.Bağırov Sov.İKP tarixində ən ali partiya rəhbərliyinə seçilən, SSRİ-də yaşayan bütün müsəlmanların ilk nümayəndəsi və ilk azərbaycanlı idi (Yada salaq ki, M.C.Bağırov həm də ÜİK(b)P (Sov. İKP) MK aparatında işləyən, partiyanın baş qərargahında əməli fəaliyyət göstərən (1932-ci ildə) ilk müsəlman və ilk azərbaycanlı olmuşdur - F.M.).

Sov. İKP MK-nın, SSRİ Nazirlər Sovetinin və SSRi Ali Soveti Rəyasət Heyətinin birləşmiş iclası, həmçinin qəbul edilmiş bir sıra qərarların, xüsusilə ölkə

rəhbərliyinə, hökumət tərkibinə olan yeni təyinatların SSRİ Ali Sovetində təsdiq olunması zərurətini nəzərə alaraq, 1953-cü il mart ayının 14-də SSRİ Ali Sovetinin növbədənkənar sessiyasının çağrılmasını da qərara aldı. SSRİ Ali Soveti sessiyasının keçirildiyi günün səhəri - mart ayının 15-də Sov. İKP MK-nın plenumu çağrıldı. Plenum Q.M.Malenkovun keçən gün SSRİ Ali Sovetinin sessiyasında SSRİ Nazirlər Sovetinin sədri vəzifəsinə təsdiq edilməsi ilə əlaqədar olaraq onun Sov. İKP MK katibi vəzifəsindən azad olunması haqqında xahişini yerinə yetirdi və N.S.Xruşşov, M.A.Suslov, P.N.Pospelov, N.N.Şatalin, S.D.İqnatyevdən ibarət MK katibliyinin tərkibini təsdiq etdi.

Sov. İKP MK-nın mart (1953-cü il) plenumunda MK-nın birinci katibi seçilən N.S.Xruşşovun (o, mart ayının 6-na kimi həm də Sov. İKP Moskva Komitəsinin birinci katibi vəzifəsində işləyirdi - F.M.) tövsiyəsi ilə ölkənin bütün müttəfiq, muxtar respublikalarında, vilayətlərində, şəhərlərində və rayonlarında partiya komitələrinin birinci katibləri hökumətə rəhbərlik işinə keçirildilər. Bu zaman boşalan vəzifələr çox böyük bir sürətlə köhnə sovet işçiləri ilə və başqa adamlarla əvəz olundu.

Partiyanın Mərkəzi Komitəsi adından verilən bu tövsiyəyə əsasən Azərbaycanda da bir sıra ciddi təşkilat-təyinat işləri görüldü.

1953-cü il aprel ayının 18-də keçirilən Azərbaycan SSR Ali Sovetinin sessiyasında 1938-ci ildən bəri Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsində işləyən T.Quliyev onu tutduğu vəzifədən azad etməyi və yerinə M.C.Bağırovun təyin olunmasını təklif etdi. Azərbaycan SSRİ Ali Sovetinin sessiyası Mir Cəfər Abbas oğlu Bağırovun Azərbaycan SSR Nazirlər Sovetinin sədri, Teymur İmam Qulu oğlu Quliyevin sədrin birinci müavini təyin olunması haqqında qanun qəbul etdi. Qeyd etmək lazımdır ki, M.C.Bağırov Azərbaycan SSR Nazirlər Sovetinin sədri vəzifəsində ikinci dəfə işləyən (birinci dəfə bu vəzifədə 1932-1933-cü illərdə işləmişdir - F.M.) ilk dövlət xadimi olmuşdur. Azərbaycan KP-nin həmin günlərdə keçirilən IV plenumunda M.C.Bağırov partiyanın tövsiyəsinə əməl edərək öz xahişi ilə vəzifəsindən azad edilmişdi. Plenum Azərbaycan KP MK-nın katibi vəzifəsinə M.C.Bağırovun təklifi ilə MK-nın ikinci katibi vəzifəsində işləyən Mir Teymur Ələkbər oğlu Yaqubovu seçmişdir.

Bu tədbirlərdən və dəyişikliklərdən bir qədər sonra Sov. İKP MK-nın iyul plenumu keçirildi. Plenum düz 7 gün (2-7 iyul 1953-cü il) işlədi. Plenumda 3 məsələ ("Beriyanın antipartiya və antidövlət hərəkətləri haqqında" (məruzəçi Q.M.Malenkov), "SSRİ Ali Sovetinin sessiyasının çağrılması haqqında" (məruzəçi K.Y.Voroşilov), "Təşkilat məsələləri"! (məruzəçi N.S.Xruşşov)) müzakirə olundu, Birinci məsələ haqqında məruzə edən Q.M.Malenkov L.P.Beriyanı ən ağır cinayətlər törətməkdə ittiham edib günahlandırdı və onun hələ bir həftə əvvəl iyun ayının 26-da Sov. İKP MK Rəyasət Heyətinin iclasında həbs olunduğu və zərərsizləşdirildiyi haqqında ölkəyə ilk dəfə məlumat verdi.

İki həftə sonra isə Bakıda Sov. İKP MK-nın iyul (1953-cü il) plenumunun qərarlarını müzakirə etmək üçün Azərbaycan KP Mərkəzi Komitəsinin və Azərbaycan KP Bakı şəhər komitəsinin birləşmiş plenumu işə başladı. Birləşmiş plenumun işi haqqında mətbuatda verilən məlumatda belə deyilirdi: Bu günlərdə Azərbaycan KP Mərkəzi Komitəsinin və Bakı şəhər partiya komitəsinin birləşmiş plenumu olmuşdur. Plenumda MK-nın və şəhər komitəsinin üzvlərilə birlikdə Azərbaycan partiya təşkilatının çoxlu fəalları iştirak etmişdir.

Plenum prinsipial əsas üzərində Azərbaycan kommunistlərinin sarsılmaz və sıx birliyi əlaməti altında, onların Sov. İKP Mərkəzi Komitəsinə hədsiz sədaqətli olmaları əlaməti altında keçmişdir.

Plenuma toplaşanlar Sov. İKP MK Plenumunun yekunları haqqında Azərbaycan KP MK katibi M.T.Yaqubov yoldaşın məruzəsini böyük fəallıqla müzakirə etmişlər.

Məruzəçi, həmçinin müzakirələrdə çıxış edənlər qeyd etmişlər ki, Sov. İKP MK Plenumunun qərarı, alçaq fitnəkar və beynəlxalq imperializmin agenti olan Beriyanın xəyanətkar fəaliyyətinin ifşa edilməsi partiya və bütün sovet xalqı üçün çox böyük əhəmiyyətə malikdir.

Azərbaycan KP MK-nın və Bakı komitəsinin birləşmiş plenumu yekdilliklə qəbul etdiyi qərarında qeyd etmişdir ki, plenum, Beriyanın partiyaya və dövlətə aid cinayətkar hərəkətlərinə son qoymaq üçün Sov. İKP Mərkəzi Komitəsi Rəyasət Heyətinin qəbul etdiyi qəti tədbirləri vaxtında görülmüş və yeganə düzgün tədbirlər hesab edir, Beriyanın partiyadan xaric edilməsi, onun partiya və sovet xalqının düşməni kimi məhkəməyə verilməsi haqqında Sov. İKP MK Plenumunun qərarını bəyənir.

Plenum qeyd etmişdir ki, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin qərarı çox böyük siyasi əhəmiyyəti olan sənəddir. Bu qərar partiya sıralarının birliyini daha da möhkəmləndirmək və Sovet dövlətinin qüdrətini daha da artırmaq işində partiyamız və sovet xalqı üçün müstəsna əhəmiyyətə malikdir. Plenumun işi tənqidi və özünütənqidi hərtərəfli və cəsarətlə genişləndirmək əlaməti altında keçmişdir. Bunun nəticəsində Azərbaycan partiya və sovet orqanlarının işindəki ciddi nöqsanlar aşkara çıxarılmışdır.

Qərarda qeyd edilir ki, Azərbaycan KP Mərkəzi və Bakı komitələrinin, onların bürolarının və katiblərinin iş təcrübəsində kollektiv rəhbərliyə dair partiya prinsipi pozulur.

Azərbaycan KP MK-nın keçmiş birinci katibi M.C.Bağırov yoldaş tərəfindən uzun müddətdən bəri qüsurlu bir rəhbərlik üsulu yaradılmışdır. O, kadrların seçilməsinə dair partiya prinsiplərinin ciddi surətdə pozulmasına yol vermiş partiya rəhbərliyi metodlarını kobud inzibatçılıqla əvəz etmiş MK bürosu üzvlərinin və MK üzvlərinin hüquqlarını tapdalamış, öz fəaliyyətinin azacıq belə tənqid edilməsinə yol verməmiş, MK bürosu üzvlərinin təkliflərinə etinasız yanaşmış, ən mühüm məsələləri təkbaşına həll etmişdir. Azərbaycan KP MK-nın

bürolarında və plenumlarında ən mühüm məsələlərə dair qərarlar çox vaxt ciddi sürətdə hazırlanmadan və ətraflı müzakirə edilmədən tələsik qəbul edilmişdir.

Azərbaycan KP MK-nın büro və plenumlarının iclaslarında tənqidin və özünütənqidin, xüsusən aşağıdan tənqidin hərtərəfli genişləndirilməsi üçün şərait yaradılmamışdır. Bütün bunlar respublikanın partiya təşkilatına kollektiv rəhbərlik orqanları olan MK plenumunun və bürosunun rolunu azaltmışdır.

Plenum Bağırov yoldaşı Azərbaycan KP MK bürosunun heyətindən çıxarmış və onun Azərbaycan SSR Nazirlər Soveti sədri vəzifəsindən götürülməsini təklif etmişdir.

Beləliklə, M.C.Bağırov Kremldən - Xruşşov-Malenkov-Suslov separatçı qrupunun Sov. İKP MK katibi P.N.Pospelov tərəfindən Bakıya gətirilən saxta ittihamları və öz dərilərini qorumaq qayğıları ilə vurnuxan bir sıra yerli səbatsız kommunistlərin, rəhbər işçilərin uydurma və böhtanları əsasında günahlandırılaraq bütün vəzifələrdən azad edilib Moskvaya aparılmış, sonra kiçik bir işdə çalışmaq üçün Kuybışev şəhərinə göndərilmişdir. O, 1954-cü il mart ayının 13-də Sov. İKP MK katibliyinin iclasında partiya sıralarından xaric edilmiş və çox güman ki, elə həmin gün Kremldə həbs olunaraq Lefortovo həbsxanasına salınmışdır

İki ildən sonra isə Bakıda saxta ittihamlar əsasında qondarma məhkəmə prosesi qurulmuş, yalançı şahidlərin əli ilə indiyə kimi tüğyan edən uydurmalara və iftiralara qanun donu geyindirilərək xalqın sədaqətli rəhbərinə, görkəmli partiya və dövlət xadiminə qərəzkarlıqla ən ağır cəza verilmişdir. Məhkəmədən düz 11 gün sonra - 1956-cı il may ayının 7-də ölüm hökmü icra olunmuş, lakin bu haqda SİTA-nın məlumatı may ayının 27-də bütün dünyaya yayılmışdır.

* * *

Qeyd etmək lazımdır ki, keçən əsrin əvvəllərindən bu günə kimi M.C.Bağırovun coşğun inqilabi, titanik ictimai fəaliyyəti, təkrarsız və xalq işi uğrunda apardığı böyük mübarizə tarixi haqqında yazılmış külli miqdarda məlumatlar, tədqiqat işləri və arayışlar çoxsaylı rəsmi sənədlərdə, arxiv materiallarında, dövri mətbuat səhifələrində, müasirlərinin xatirələrində öz parlaq əksini tapmışdır. Dahi rəhbərin və müdrik insanın yüksəlişin hansı mərhələsində və məqamında durduğunu müəyyən etmək üçün həmin sənədlərin və materialların cəmi bir neçəsi ilə tanış olmaq tamamilə kifayətdir.

***Haşiyə***: 1917-ci il fevral inqilabı dövründə M.Bağırov açıq və gərgin inqilabi fəaliyyətə başlamış, Qubada əsgər və kəndli deputatları sovetinin yaradılması, fəhlə və kəndli ittifaqının möhkəmlənməsi, xan və bəy torpaqlarının yoxsul kəndlilər tərəfindən zəbt olunması uğrunda mübarizə aparmışdır.

M.Bağırovun və b. inqilabçıların rəhbərliyi altında əksəriyyəti yoxsul kəndlilərdən və əsgərlərdən ibarət olan İnqilabi Şura Qubada hakimiyyəti ələ alır, döyüş drujinası yaradır və mülkədar mülklərini ələ keçirir. Qubada İnqilab

Komitəsinin hakimiyyəti elan edilir və Quba qəza İcraiyyə Komitəsinin sədr müavini seçilir (1917-ci ilin iyun ayında Qubada yeni təşkil olunan fəhlə və əsgər deputatları Soveti icraiyyə Komitəsinin sədri vəzifəsinə gənc həkim Qəzənfər Musabəyov seçilmişdir - F.M.).

1918-cı ilin mart-may aylarında M.Bağırovun və b. inqilabçıların Quba qəzasında fəhlə, kəndli və əsgər sovetləri yaratmaq, milli qırğının qarşısını almaq uğrunda apardıqları mübarizəyə baxmayaraq fəaliyyətləri (Stepan Şaumyanın və onun himayə etdiyi millətçi quldur dəstəsinin günahı üzündən - F.M.) uğursuz olur.

M.Bağırov gizli fəaliyyətə keçir. Sonra isə gizli yolla Bakıya gəlir. O, ilk gündən döyüş drujinasının tərkibinə daxil olur və Bakının müdafiəsində iştirak edir. Bakıda sovet hakimiyyəti 1918-ci ildə yıxıldı. M.Bağırov bu zaman Petrovun dəstəsinin qalıqları ilə birlikdə Həştərxana gedir... M.Bağırov göstərdiyi igidlik və mərdliyə görə 1920-ci ilin əvvəllərində RSFSR MİK tərəfindən Qırmızı Bayraq ordeni ilə mükafatlandırılmışdır...

1921-ci il fevralın 25-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun iclasında iştirak edən M.Bağırova Azərbaycanda ali idarəedici orqan olacaq Azərbaycan Fövqəladə Komissiyasının (AzFK - Az ÇK) təşkil edilməsi tapşırılır. O, martın 28-də Siyasi Büroda AzFK-AzÇK haqqında çıxış edir və aprelin 2-də isə əlavələrlə məruzə edir... M.Bağırov 1921-ci il aprelin 2-də AzFK sədri təsdiq edilir. Bu qərar 1921-ci il mayın 6-9-da keçirilmiş I Ümumazərbaycan Sovetlər qurultayı tərəfindən bəyənilmiş və M.Bağırov N.Nərimanov başda olmaqla təşkil edilmiş Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibinə seçilmişdir...

N.Nərimanovun təklifi ilə M.Bağırov RK(b)P MK Siyasi Bürosunun 1921-ci il oktyabrın 15-də keçirilən iclasında Qafbüronun tərkibinə tövsiyə edilmişdir. M.Bağırov ağır və çətin olan bu vəzifələrdə ilk gündən antisovet qüvvələrə qarşı amansız mübarizə aparmış, üsyanları qəddarlıqla (mərdanəliklə demək lazım idi - F.M.) yatırmış. **Azərbaycanda kəşfiyyat işinin təşkilində və möhkəmləndirilməsində bu sistemə azərbaycanlıların cəlbi sahəsində xeyli iş görmüşdür (kursiv bizimkidir - F.M.).**

Qasımlı M., Hüseynov C. Azərbaycanın baş nazirləri - B.: - Adiloğlu nəşriyyatı- 2005. s.58-59, 60, 61.

** *

Весною в начале лета 1918 г. тов М.Д.Багиров вел работы среди крестян Кубинского района, поднимая их на борьбу против иностранных интервентов и мусаватской контрреволюции.

Казиев М. Книга о борьбе против германо-турецках интервентов // Бакинский рабочий – 1947. – 21 мая.

** *

V.Bağırov 1919-cu ildə anadan olmuşdur. Onun uşaq çağları və gənclik illəri Bakıda keçmişdir. Vladimir Bağırov, Stalin rayonunun məktəb-sarayında oxumaqla eyni zamanda Osoaviaximin Baki təyyarə klubunda təyyarəçilik işini öyrənməyə başlayır. Hələ 16 yaşı tamam olmamışdan komsomola girir. Lenin-Stalin komsomolunda tərbiyə alıb böyüyən Bağırov Sovet ölkəsinin əsl vətənpərvəri olur.

Vladimir lap uşaq vaxtından təyyarəçi olmaq arzusunda idi. O, öz arzusuna çatmaq yolunda əzm və mətanət göstərir, bir neçə il böyük səylə oxuduqdan sonra 1938-ci ildə aeroklubda təyyarəçilik kursunu qurtarır və Eysk hərbi-dəniz təyyarə məktəbinə göndərilir. V.Bağırov 1939-cu ildə buradan Daşkənd piyada məktəbinə keçirilir.

Bu məktəbi Volodya Bağırov vətən müharibəsi günlərində qurtarıb leytenant adı alır və cəbhəyə göndərilir. Burada alman-faşist işğalçılarına qarşı döyüşlərdə, düşmənlə amansız vuruşmalarda Vladimirin ən yaxşı xüsusiyyətləri, - mətinliyi, igidliyi, qələbəyə möhkəm iradəsi və öz vətəninin düşmənlərinə qarşı barışmazlığı meydana çıxır. 1942-ci ildə Serpuxov ətrafındakı vuruşmalarda yaralanır. Lakin çox keçmədən sağalır və ixtisasını artırmaq üçün T. şəhəri təyyarə məktəbinə göndərilir. Vladimir Bağırov burada bolşevik partiyasının sıralarına qəbul olunur.

Vladimir təyyarə məktəbində oxuyandan sonra baş leytenant adı alır və yenə cəbhəyə göndərilir. O En qvardiya aviasiya polkunda lap birinci günlərdən sovet təyyarəçisinə məxsus bütün gözəl xüsusiyyətlərini göstərir. O, bütün tükənməz qüdrətini, cavanlıq əzmini və döyüşçü bacarığını nemes-faşist işğalçılarına qarşı mübarizəyə sərf edir.

Vladimirin dostları müharibə zamanı onunla keçirdikləri günləri, havada düşmənlə qızğın vuruşmaları heç zaman unutmayacaqlar. Vladimir xalqların qardaşlıq ailəsində bərkiyərək mübarizədə qorxu nə olduğunu bilməyən şanlı Stalin şahinlərindəndir. Vladimir Bağırov faşist təyyarələrinə və təyyarəçilərinə sarsıdıcı zərbələr vurmağı bacarırdı.

O, yaxşı bilirdi ki, Qızıl Ordu komandiri adını daşıyan bir adam vətən qarşısında öz böyük vəzifəsini namusla yerinə yetirməlidir, buna görə də döyüşdə həmişə irəlidə olurdu. Daim öz hərbi biliyini təkmilləşdirirdi. Həssas komandir və mehriban bir yoldaş idi.

1943-cü il iyunun 5-də, cəbhənin bir yerində düşmən təyyarələri hərbi obyektlərimizi bombalamaq üçün O... şəhəri rayonuna hücum edirlər. Düşmənin bu hücumunu dəf etmək üçün bizim qırıcı təyyarələrimiz faşist təyyarələrinin qabağına çıxır. Bu qırıcı təyyarəçilərimizin biri də Vladimir Bağırov olur. Sayca bərabər olmayan bu vuruşmada 11 düşmən təyyarəsindən 7-si vurulub salınır. Qəlbində düşmənə sönməz ədavət və nifrət bəsləyən Volodya öz təyyarəsini düşmən təyyarəsinə vurur və igidliklə həlak olur. Cəbhə komandanlığının xahişi ilə

qvardiyaçı baş leytenant Vladimir Mir Cəfər oğlu bu qəhrəmanlığına görə yüksək mükafatla, Lenin ordeni ilə təltif olunur.

Stalin şahini igid Vladimir Bağırovun bu mərdliyi və cəsarətli komsomolçuları və bütün gənclərimizi yeni qəhrəmanlıqlar üçün, doğma vətənimizə fədakarlıqla xidmət etmək üçün ruhlandırır. Sovet Azərbaycanmın gənc vətənpərvərləri bu igid təyyarəçi-döyüşçüdən həm cəbhədə, həm də arxada qalib gəlmək, mətinlik, mərdlik və qəhrəmanlıq göstərmək işini öyrənməlidirlər. Onlar sovet vətənimiz uğrunda, Stalin uğrunda Vladimir kimi qəhrəmanlıqla mübarizə etməlidirlər.

Vladimirin parlaq xatirəsi, Sovet xalqının mənfur düşmənə qalib gəlməsi uğrunda onun göstərdiyi qəhrəmanlıq bizim qəlbimizdə, bütün Azərbaycan zəhmətkeşlərinin qəlbində əbədi yaşayacaqdır.

**Yoldaşlarından bir qrup**

Azərbaycanın şanlı oğulları (Ikinci kitet). -B.:-Azərnəşr-1944.-S.17-19.

* * *

## Qvardiya baş leytenantı Cahangir Mir Cəfər oğlu Bağırovun döyüş yolu

Cahangir Mir Cəfər oğlu 1919-cu ilin 6 oktyabrında Həştərxanda dünyaya göz açmışdır. Bakıda orta məktəbdə oxuyarkən Osoaviaxim təşkilatının təyyarəçilik klubunda fəal iştirak etmiş və təyyarəçi olmaq arzusunda olmuşdur.

1938-ci ildə Rusiyanın Yeysk şəhərindəki hərbi-dəniz təyyarəçilik məktəbində oxumuş, 1939-cu ildə isə Daşkənd hərbi məktəbində təhsilini qurtardıqdan sonra leytenant rütbəsində Böyük Vətən müharibəsinə getmişdir.

1942-ci ilin əvvəlində, Almaniya faşist ordusunun Moskva altında darmadağın edilməsi əməliyyatları zamanı o, Serpuxov rayonu ərazisində getmiş döyüşdə yaralanmış və xəstəxanada qısa müddətli müalicədən sonra yenidən cəbhəyə göndərilmişdir. Yoldaşları ona Vladimir deyə müraciət edirdilər.

Sovet ordusunda istifadəyə yenicə qəbul edilmiş qırıcı təyyarələrin idarə edilməsini təmin etmək məqsədilə 1942-ci ilin oktyabrında təşkil edlmiş təkmilləşmə məktəbinə göndərilmiş döyüş zabitləri sırasında Cahangir Bağırov da var idi və qısa müddətli təhsildən sonra o, yenidən cəbhəyə göndərildi və çox keçməmiş Kursk-Oryol döyüş əməliyyatında iştirak etmişdir.

1943-cü ilin 2 iyununda Kursk şəhəri ətrafında düşmən tanklarının və təyyarələrinin növbəti güclü hücumları zamanı Cahangir Bağırovun komandir olduğu eskadrilya (təyyarələr dəstəsi) düşmənin 11 təyyarəsindən 7-sini döyüşdə vurub yerə salmışdı. Bu təyyarələrdən ikisini həmin döyüşün iştirakçısı qvardiya

baş leytenantı Cahangir Bağırov vurmuşdur. Cahangir Bağırov düşmənin üçüncü təyyarəsi ilə vuruşarkən təyyarəsinin yanacağı qurtardığı üçün "tarana" getmiş və özü də bu döyüşdə həlak olmuşdur.

1943-cü ilin 8 iyununda Azərbaycanda nəşr olunan "Kommunist" və "Bakı fəhləsi" ("Бакинский рабочий" qəzeti nəzərdə tutulur - F.M.) qəzetlərində çap olunmuş "nekroloq"da Cahangir Bağırovun qəhrəmancasına vuruşduğu yazılmışdır. Bu yazıya imza atmış 24 nəfərdən 7 nəfəri azərbaycanlıdır və onların içərisində təyyarəçi müharibə veteranı Məzahir Abbasov da vardır.

Kursk cəbhəsi komandanlığı döyüş igidliyinə görə Cahangir Bağırova Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilməsi haqqında təqdimat vermişdi. O dövrə aid xatirə yazışmalarından məlum olur ki, həmin dövrdə İ.V.Stalinin oğlu Almaniya ordusu əsirliyində olduğuna görə M.C.Bağırov öz oğluna bu yüksək adın verilməsinə razılıq verməmişdir və Cahangir Bağırova Lenin ordeni verilmişdi. Cahangir Mir Cəfər oğlu Bağırov Bakıda ailə üzvlərinin uyuduğu "Beynəlmiləl qəbiristanlıq"da dəfn edilmişdir. Söyləyirlər ki, bu təklifi də atası M.C.Bağırov etmişdir. Halbuki, Cahangirin dəfni üçün "Fəxri xiyaban"da yer də hazırlanmışdı.

Bakıda indi nəşr edilən "Xatirə" kitabının II cildinin 150-ci səhifəsində Cahangir Bağırov haqqında verilmiş qısa yazıda atasının oğluna Sovet İttifaqı Qəhrəmanı adı verilməsi haqqında təkliflə əlaqədar guya "ona-heç bir ad lazım deyil" deməsi haqqında yazılmış mətn inandırıcı deyildir.

**İsmayılov İ., Məhərrəmov Ə.** Azərbaycan veteranlarının döyüş xatirələri. - B.: - ADNA-nın nəşriyyatı - 2005 - s.30-31.

* * *

В летопис нашей Родины навсегда войдут имена героических сынов Азербайджана Ази Асланова. Идриса Сулейманова, Владимира Багирова, Саледдин Кязымова, Хыдыра Мустафаева и многих других

**Касумов М. Б.** Под знаменем Ленина – Сталина// Бакинский рабочий – 1946- 28 апреля

* * *

Bağırov Cahangir (Vladimir) Mir Cəfər oğlu. 16.10.1919 ildə Həştərxan ş.-ndə doğulmuşdur. Azərbaycan Bakı ŞHK-ndan orduya çağırılmışdır (1941). Azərbaycan H. təyyarəçilik salnaməsində şərəfli səhifə açmış, Kursk səmasında özünün idarə etdiyi qırıcı təyyarə ilə düşmən təyyarəsinə qarşı tarana keçmiş və qəhrəmancasına həlak olmuşdur. (05.06.1943). Bu Azərbaycanın hərb tarixində əlamətdar hadisədir. Bu igidlik və şücaətinə görə ona "Sovet İttifaqı Qəhrəmanı" adı verilmiş, lakin atası M.C.Bağırovun: "Vətən uğrunda Vətən oğlu ölmüşdür, bu başqa cürə də ola bilməzdi, ona heç bir ad lazım deyil" təkidli tələbi ilə bu təşəbbüsdən imtina etmişdir. Bakı ş. Beynəlmiləl qəbristanlıqda dəfn edilmişdir.

**Bax: Azərbaycan Respublikası Xatirə Kitabı.** 2-ci cild.Azərbaycan Respublikası Xatirə Kitabı redaksiyası. – B.: 2002.-s.150.

* * *

Помню, мы с летчиком А. А. Пальчиковым едва отыскали аэродром Грушки, где базировался 27-й истребительный полк. Находился он примерно в десяти километрах от переднего края и мог подвергнуться не только бомбардировке с воздуха, но даже артиллерийскому обстрелу. Тем не менее держать здесь истребители для перехвата воздушных разведчиков было крайне необходимо. Местность вокруг была холмистая, общий фон — пятнистый. Чтобы скрыть от глаз немцев аэродром, бойцы по эскизу Лукьянова замаскировали взлетно-посадочную площадку так, что она сверху казалась изрезанной оврагами, хорошо вписывающимися в общий рисунок местности. Солдаты скосили клевер. Скошенные участки засыпали соломой и сожгли ее. На обожженных местах имитировали овраги, по летному полю сделали ложную дорогу.

«Где же аэродром?» — подумал я, когда подлетели к Грушкам. Пришлось снизиться до высоты бреющего полета, чтобы увидеть искусно замаскированные самолеты. Встретивший меня командир полка В. И. Бобров сказал:

- Мы установили очень твердую маскировочную дисциплину. Никаких лишних движений! Выруливание на старт и взлет производим в максимально короткие сроки. Стоит самолету зарулить на стоянку, как тут же его маскируем.

О том, насколько умело и искусно трудились маскировщики и личный состав частей, свидетельствуют и такие факты. Во время подготовки к Курской операции наши летчики сбили немало фашистских воздушных разведчиков, полетные карты которых показывали, что большинство наших действующих аэродромов противник так и не обнаружил.

В течение июня 1943 года немецкая авиация совершила на аэродромы двадцать один налет, из них только три пришлось на действующие. В приказе Военного совета ВВС Красной Армии майору В. И. Лукьянову была объявлена благодарность. Позже он был награжден двумя орденами Отечественной войны, орденом Красной Звезды, медалями.

В ходе подготовки к боям на Курской дуге наша авиация вела упорную борьбу с ВВС противника, наносила удары го железнодорожным объектам, штабам, узлам связи, войскам. С апреля вплоть по 5 июля летчики 2-й воздушной армии совершили более двадцати тысяч самолето - вылетов.

В период с 6 по 8 мая проводилась крупная воздушная операция с целью уничтожения вражеской авиации на аэродромах. В ней участвовали шесть воздушных армий, в том числе и 2-я.

Скрытность подготовки обеспечила внезапность и высокую эффективность первого массированного удара по семнадцати аэродромам противника. 6 мая под вечер наша авиация нанесла повторный удар. Налеты продолжались утром 7 и 8 мая. Конечно, повторные атаки не были столь эффективны, как первый удар. Противник принял меры к усилению противовоздушной обороны аэродромов, привел в боевую готовность истребительные части, успел рассредоточить и замаскировать технику, перебазировать частично свою авиацию в тыл. Однако ущерб, понесенный немцами, был велик: они потеряли за три дня более пятисот самолетов.

Успешно действовали летчики 2-й воздушной по аэродрому Сокольники. Шестнадцать Ил-2 в сопровождении двадцати трех истребителей уничтожили двенадцать двухмоторных бомбардировщиков. На аэродроме Померки шестерка наших штурмовиков подожгла пять самолетов. Результат был подтвержден воздушным фотографированием. Военный совет Воронежского фронта объявил благодарность всему летному составу, принимавшему участие в этих вылетах.

Примерно через месяц была проведена вторая операция. К ней привлекались силы 1, 15, 16-й и 2-й воздушных армий, а также авиация дальнего действия. В результате четырех массированных ударов по аэродромам противника уничтожено около трехсот машин. Таким образом, только в ходе двух операций наши летчики истребили около восьмисот фашистских самолетов.

2 июня большие группы немецких бомбардировщиков на разных высотах и с различных направлений предприняли налет на Курск. Истребители 2-й воздушной армии во взаимодействии с летчиками 16-й воздушной армии и 102-й дивизии противовоздушной обороны страны успешно отразили их нападение, уничтожив при этом до ста пятидесяти пяти самолетов. В этом бою особенно отличился летчик Володя Багиров, который уничтожил два Ю-88 и на встречных курсах пошел на таран с “Фокке-Вульфом-190”. Оба самолета при столкновении взорвались в воздухе.

**Красовский С. (маршал авиации). Жизнь в авиации.** Минск - Из-во “Бела-русь”. -1976. - с.164-165.

***

История авиации хранит 600 случаев, когда воздушный бой заканчивался тараном. И все совершены советскими летчиками. Только во второй половине 1941 года они протаранили и уничтожили около 200 фашистких самолетов, из них 26-на подступах к Москве, Герой Советского Союза Борис Ковзан четырежды таранил выражские машины и остался жив.

Третьяков Ю. Последний МиГ капитана Елисеева. 30 лет назад советский летчик впервые в мире совершил таран на сверхзвуковом реактивном самолете//Труд-7. - 2003. - 11 декабря.

* * *

Cahangir (Vladimir) Mir Cəfər oğlu Bağırov qanlı döyüş meydanlarında göstərdiyi şücaətlər və onun Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi haqqında rəsmi sənədlər, məlumatlar və raportlar aşağıdakı arxivlərdə indi də qorunub saxlanmaqdadır.

1.Центральный Государственный Архив Советский Армии - 119435; г.Москва, Б.Пироговская, 17 (1918-1960 гг.)

2.Архив Министерства Обороны России (бывшего СССР). Московской области (1941-1945, 1945-1995 гг.).

3.Приказ о порядке награждения №0299 19 августа 1941 г. А. В истребительный авиации.

**Bax:** Moskva, ЦАМО, Ф.4, ор.11, д.65, л.361,-369.

4.Положение о наградах и премиях для личного состава Военно-воздушных Сил Красный Армии, авиации дальнего действия, истребительной авиации ПВО, ВВС, ВМФ за боевую деятельности и сохранение материальной части.

30 сентября 1943 г.

Командующий ВВС Красной Армии. Маршал авиации НОВИКОВ.

**Bax:** Москва, ЦАМО, ф.4, оп.12, д.108, л.502-518.

* * *

## Mir Cəfər Bağırovun oğlunun məzarı Bakıdadır
### *Ancaq bu məzar hamıdan gizlədilir*

İki həftə idi ki, kollektiv arasında maraqlı bir söhbət gedirdi. Bu, Mircəfər Bağırovun oğlu barədə olan söhbət idi. Onun məzarının aşkar olunduğu danışılırdı. Əvvəl qeyri-real yanaşsam da, sonra məndə də bu mövzuya qarşı inam, eyni zamanda, maraq yarandı. Bu barədə ağsaqqal ziyalılarımızdan biri ilə söhbət etmək qərarına gəldim. O, məzarın Şəhidlər Xiyabanı yaxınlığında, Həzi Aslanovun heykəlinin sol tərəfində olduğunu söylədi.

Elə söhbət etdiyimiz gün həmin ünvana üz tutdum. Doğrudan Şəhidlər Xiyabanı yaxınlığında Həzi Aslanovun heykəlinin sol tərəfində, azca aralıda tənha məzar yerləşirdi. Lakin onu məzara bənzətmək olmazdı. Üstünə qalınlığı 8-10 sm olan 8 ağ daş qoyulmuşdu. Yəni onun kimliyini sübut edən yazının üstü örtülmüşdü.

Söhbət əsnasında məlum oldu ki, Mircəfər Bağırovun oğlu 1941-1945-ci illər arasında baş vermiş Böyük Vətən müharibəsinin qəhrəmanı olub. Həlak olduqdan sonra burada onun məzarı qurulub. Lakin 1984-cü ildə “Kirov parkında” (indi Şəhidlər Xiyabanı) aparılan təmir zamanı onun məzarının üstü erməni ustalar tərəfindən daşla hörülüb.

**Hicran Vahabzadə**

**Bax:** “168 saat” qəzeti, 20-26 oktyabr 2000-ci il.

* * *

Bakının yuxarı hissəsində, Badamdar qəsəbəsinə gedən yolun sağındakı beynəlmiləl qəbiristanlıqda bir-biri ilə yanaşı, üç məzar var: ana, oğul və əmiqızı... Bir də 31 yaşlı Mir Cəfər Bağırovdan yadigar qalmış dəmir oturacaq.

**Qurban T. Üç məzar başında yada düşənlər** // Həftə - 2003 -21 iyun.

* * *

Təxminən iki il öncə Mais Bağırovla birgə yazdığım “Bir məktubun tarixçəsi” adlı yazı “525-ci qəzet”də işıq üzü görmüşdü. Yazıda Azərbaycan KP MK-nın birinci katibi olmuş M.C.Bağırovun oğlunun Böyük Vətən müharibəsi illərində cəbhəyə yollanmaq xahişilə atasına göndərdiyi məktubdan bəhs etmişdik. İş burasındadır ki, o zaman döyüşlərdən birində yaralanan V.Bağırovun müalicə olunduqdan sonra cəbhəyə göndərilməsi hansı səbəblərə görəsə yubadılırdı və bu işi tezləşdirmək üçün o, atasına müraciət etməyə qərar vermişdi. Və bu müraciətdən az sonra V.Bağırov artıq Voronej istiqamətində 40-cı qvardiya polkunun tərkibində döyüşlərə atılmışdı.

Bizim məqalənin dərc olunmasından xeyli öncə mənim keçmiş hərbi təyyarəçi Məzahir Abbasovla söhbətim olmuşdu. Vladimir Bağırovu yaxından tanıyan M.Abbasov onun haqqında mənə bir xeyli maraqlı hadisələr danışmışdı. Ancaq təəssüf ki, birinci yazını hazırlayarkən mən M.Abbassovla aramızda olan söhbətləri qeyd etdiyim kitabçanı nə qədər axtarsam da tapa bilməmişdim. Və bu günlərdə həmin kitabçanı tapdıqdan sonra yenidən bu mövzuya qayıtmağa qərar verdim.

Bu yaxınlarda isə köhnə dostum general Rəşid Sadıxovla birgə Vladimir Bağırovun köhnə Azərbaycan qəbiristanlığındakı məzarını tapdıq. Məzar baxımsız vəziyyətdə idi, hətta qəbirüstü daşı belə yox idi. Qəbirin üstündə saralıb-solmuş kiçik daş parçasının üzərində Azərbaycan dilində aşağıdakı sözlər yazılmışdı: “Vladimir-Cahangir Mircəfər oğlu Bağırov 1919-cu ilin 6 oktyabrında anadan olub. Faşist işğalçılarına qarşı döyüşlərdə 1943-cü ilin 5 iyununda qəhrəmancasına həlak olub". Bir qədər aşağıda isə yenə də kiçik bir daş lövhənin üstündə 1943-cü

ilin 9 iyununda SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanı ilə Vladimir Bağırovun Lenin ordeni ilə təltif edilməsi haqqında qeyd var idi.

Vladimir - Cahangir Bağırov 1919-cu ildə Həştərxanda anadan olub. Ailəsi Bakıya köçdükdən sonra o, anası ilə birgə Bayılda yaşayırdı. İliç sarayının ("BP"nin hazırki baş ofisi) nəzdindəki məktəbdə oxuyurdu. Vladimiri yaxından tanıyanların dediklərinə görə o, uşaqlıqdan təyyarəçi olmağı arzulayırdı və 16 yaşa çatar-çatmaz "Osoviaxim" (müharibədən öncə belə bir yarımhərbi ictimai təşkilat var idi -A.Ş.) adlı Bakı aeroklubuna daxil olur. O, burada "U-2" tipli təlim təyyarəsində tədris kursu keçmişdi və hətta Zabrat aviaməktəbinin ən yaxşı təyyarəçisi hesab olunurdıı.

Anası dünyasını dəyişdikdən sonra isə Vladimir atası ilə yaşamağa başladı. 1938-ci ildə konüllü surətdə Qırmızı Ordu sıralarına qoşulur və onu "Eysk" yay hərbi-dəniz məktəbinə göndərirlər. O, burada "U-15" tipli təyyarənin mənimsənilməsində şagirdlər arasında öncüllərdən olur. Şahidlərin dediyinə görə, Vladimirin nizam-intizamla bağlı problemləri olurdu, o daima hadisələri qabaqlamağa çalışırdı. "Azərros" qəzeti onun üzləşdiyi bu cür hadisələrin biri haqqında bəhs etmişdi: "V.Bağırova idarə etdiyi təyyarə ilə 1500 metr hündürlükdə göyə qalxmaq və iki kəskin virac, bir neçə fiqur yerinə yetirdikdən sonra yerə enmək tapşırılmışdı. Həmin gün hava tutqun idi, göy üzü görünmürdü. Ancaq buna baxmayaraq, Vladimir dərhal təyyarəni 2500 metr hündürlüyünə qaldırır və bir qədər "pilotac" fiqurlarını yerinə yetirdikdən sonra artıq təyyarə 4500 metr hündürlükdə uçurdu. O zaman nizam-intizamı pozduğuna görə Vladimirə çox ciddi xəbərdarlıq vermişdilər".

Deyilənlərə görə, 1939-cu ildə Moskvaya yol üstündə ikən M.Bağırov oğlunun və digər bir neçə azərbaycanlı uşağın oxuduğu yay məktəbinə baş çəkir. Məktəbin mayor rütbəli tədris işləri üzrə müdiri burada oxuyan bakılı uşaqları təriflədikdən sonra, onlardan bəzilərinin nizam-intizamı pozduqlarını da qeyd edir. Onu dinləyən M.Bağırov isə deyir; "Ölkənin hərbi təyyarəçilərə kəskin ehtiyacı var, ancaq göydə nizam-intizamı pozanlar bizə lazım deyil. Yox, əgər mənin oğlum da onların arasındadırsa, onda onu da kənarlaşdırın". Və mayor bu "göstəriş"dən istifadə edərək ən qabiliyyətli kursantından dərhal yaxasını qurtarır. Bunun ardınca Vladimiri Rustavidə yerləşən hərbi təyyarəçilər məktəbinə göndərirlər və o, bu təhsil ocağını müvəffəqiyyətlə bitirir.

Müharibənin ilk günlərindən cəbhəyə yollanan Vladimir Qərb cəbhəsində HHQ-nin leytenantı rütbəsində qırıcı təyyarədə almanlarla döyüşlərə atılır. 1942-ci ilin oktyabrında isə Serpuxov səmasında hava döyüşlərindən birində yaralanır, ancaq buna baxmayaraq, çox böyük məharətlə idarə etdiyi təyyarəni yerə endirə bilir. Yaralı Vladimir hərbi-səhra hospitalına göndərilir. Müalicə kursu keçib bir qədər özünə gələn V.Bağırovu yeni sovet təyyarələrini idarə etməyi tədris edən yay məktəbinə göndərirlər. Bu təhsil ocağında ona baş leytenant rütbəsi verilir. Ancaq vaxt keçir, Vladimiri isə nəyə görəsə cəbhəyə göndərməyə tələsmirdilər. Bu işlərin

bu cür getdiyini görən Vladimir atasına məktub yazmağa qərar verir. Biz Mais Bağırovla birgə birinci yazımızda həmin məktubun mətnini bütünlüklə oxucularımıza təqdim etmişdik. İndi isə o məktubdan yalnız kiçik hissəni bir daha nəzərinizə çatdırmaq istərdim: "...Artıq iki ay yarımdır ki, cəbhəyə göndəriləcəyim anı gözləyirəm. Əgər sən bilsəydin mən necə əzab çəkirəm. Gənc, sağlam ola-ola arxa cəbhədə olduğuma görə utandığımdan heç kimin gözünə baxa bilmirəm. Səndən xahiş edirəm, mənim cəbhəyə göndərilməyimi tezləşdir. Hər bir silah-sursatla vuruşmağa razıyam. Qucaqlayıb, öpürəm. Oğlun Vladimir".

Oğlu Vladimirin məktubunu alan M.Bağırov ona yox deyə bilmədi. Və artıq 1943-cü ilin fevralında Vladimir 2-ci HHQ-nin 40-cı qvardiya polkunun tərkibində almanlara qarşı döyüşürdü.

Məzahir Abbasov o zaman mənə maraqlı bir əhvalat da nəql etmişdi. Bir dəfə komandirdən əmr alan Vladimir patrul xidməti çəkmək üçün təyyarə ilə səmaya qalxır. Səmaya qalxar-qalxmaz o, dərhal üç alman təyyarəsinin əhatəsinə düşür. Almanların onu əsir götürəcəyini dərhal hiss edən Volodya onlara kələk gəlmək qərarına gəlir. O, bütün hərəkətləri ilə almanlara müqavimət göstərməyəcəyini və onlarla birgə düşmənin aerodromuna uçmağa hazır olduğunu büruzə verməyə başlayır. Ancaq Volodyanın məqsədi düşmən aerodromuna bacardıqca yaxınlaşaraq ərazinin fotoşəkilini çəkmək və məlumat toplamaq idi. Və beləcə almanları onun təslim olduğuna yüz faiz inandırmaq üçün o, tədricən aşağı enməyə başlayır. Aerodrom ətrafında bir-iki dairə vurub lazımi məlumatı toplayan Volodya qəfildən təyyarəni göyə qaldırır. Ancaq elə həmin an alman təyyarələrindən təslim olmaq tələbi səslənir və onun təyyarəsi pulemyotlardan atəşə tutulur. Ancaq Volodya gözəl başa düşürdü ki, düşmən texnikasının yanacağı qurtarmaq üzrədir və bu səbəbdən onlar tezliklə təyyarələrini yerə endirmək məcburiyyətində qalacaqlar. Və beləcə müvafiq fürsətin yetişdiyini görən Volodya qəfildən təyyarəsini yuxarı qaldırır. Elə həmin an təyyarənin bu hərəkətindən yaranan qəfil hava axını alman təyyarələrindən birini kənara atır. Bundan istifadə edən Vladimir təqibdən yaxasını qurtarmağa müvəffəq olur və topladığı çox mühüm məlumatlarla geri dönür. Onun bu şücaəti haqqında az keçmir ki, bütün diviziya danışmağa başlayır.

Həmin günlər Bakı qəzetlərində işıq üzü görən yazılardan: "1943-cü ilin 5 iyununda Oboyan şəhərində yerləşən mühüm hərbi obyektləri məhv etmək məqsədilə almanların bir ədəd bombardmançı təyyarəsi – "Yunkers"lər ora havadan həmlə ediblər. Bu həmlənin qarşısını almaq üçün Vladimir Bağırovun da sırasında yer aldığı qvardiya qırıcı təyyarələri havaya qaldırılıb. Şiddətli hava döyüşündə sovet qırıcı təyyarələri 11 düşmən təyyarəsindən 7-sini vurmağa nail olublar. Düşmənin vurulan təyyarələrindən biri Vladimirin hesabında olub. Və döyüşün gedişində alman bombardmançılarından birinin sakitcə aradan çıxmaq istədiyini görən Vladimir təyyarəsini onun ardınca sürür. Sursatının tükəndiyini görən azərbaycanlı təyyarəçi alman "Fokke-Vulf"unu taran edir. Təyyarələrin hər

ikisi səmada partlayır və Bağırov həlak olur. Beləliklə, Vladimir Bağırov V.Talapixin və N.Qastellonun şücaətini təkrar edir. O "taran"a gedən ilk azərbaycanlı təyyarəçi idi.

Hadisə haqda Fövqəladə komissiyanın sədri N.Şvernik M.Bağırova məlumat verir. V.Bağırovun göstərdiyi şücaəti cəbhə komandanı da çox yüksək qiymətləndirərək onun Sovet İttifaqı Qəhrəmanının Qızıl Ulduzuna və Lenin ordeninə layiq görülməsinə təqdimat verir. Bu təklifi SSRİ Ali Sovetinin sədri M.Kalinin də dəstəkləyir, İ.Stalin də etiraz etmir. Ancaq M.Abbasovun mənə dediyinə görə, bu təklif Bakıda öz dəstəyini tapmadı və M.Bağırov oğluna yalnız Lenin ordeninin verilməsi ilə kifayətlənməyi xahiş etdi.

1943-cü ilin 11 iyununda M.Kalininin imzası ilə SSRİ Ali Sovetinin fərmanı dərc olunur: "İşğalçılarla mübarizədə döyüş tapşırıqlarını yerinə yetirdiyinə və bu zaman göstərdiyi şücaət və qəhrəmanlığa görə baş leytenant Bağırov Vladimir Cəfər oğlu Lenin ordeni ilə təltif edilsin". N.Şverniklə telefon söhbətində isə M.Bağırov oğlunun vuruşub qəhrəmancasına həlak olduğu torpaqda basdırılmasına etiraz etmədiyini demişdi. Ancaq N.Şvernik M.Bağırova cənazənin hərbi təyyarədə artıq Bakıya istiqamət götürdüyünü deyir.

Öz-özümə xeyli fikirləşdim ki, axı nəyə görə M.Bağırov oğlu Vladimirə layiq olduğu Sovet İttifaqı Qəhrəmanı adının verilməsinə etiraz etmişdi. Yəqin bu onunla bağlı idi ki, həmin dövrdə almanlar İ.Stalinin böyük oğlu Yakovu əsir götürmüşdülər və onu feldmarşal Paulslə dəyişməyi təklif edirdilər. N.Xruşşovun oğlu da alman əsirliyində idi. Onu o zaman törətdiyi ağır cinayət əməlinə görə rütbədən salaraq cəza batalyonunun tərkibində cəbhəyə göndərmişdilər. O isə özününkülərə acıq verərək könüllü surətdə almanlara təslim olmuşdu və hələ bu azmış kimi hər gün əlində səs-gücləndirici cəbhə xətti boyunca gəzərək sovet əsgərlərini almanlara təslim olmağa səsləyirdi. O zaman Stalinin əmri ilə partizanlar satqını oğurlayaraq vətən xaini kimi edam etmişdilər. Və elə o vaxtdan N.Xruşşovun ürəyində Stalinə qarşı qisas, kin-küdurət hissi yer almışdı və ilk fürsət düşən kimi o "şəxsiyyətə pərəstişlə mübarizə adı" altında öz sələfini ləkələməyə başladı. Bundan əlavə V.Molotovun yaxın qohumu Cemçucinov da alman əsirliyində idi. Yəqin elə bu səbəblərə görə, M.Bağırov oğlunun göstərdiyi şücaəti gözə soxmamaq üçün ona Sovet İttitaqı Qəhrəmanı adının verilməsinə qarşı çıxmışdı. Halbuki həmin dövrdə mövcud əsasnaməyə görə düşmən təyyarəsini taran edərək həlak olmuş təyyarəçiyə hökmən bu yüksək ad verilirdi.

Mən Vladimirin Bakıda keçirilən dəfn mərasimini yaxşı xatırlayıram. Cənazəni Bakıdakı Zabitlər evindən qaldıraraq bütün şəhər boyu aparmışdılar. Belə bir versiya var ki, izdiham o vaxtkı Lenin muzeyinin yanından keçərkən M.Bağırov qəfildən Xalq Komissarları Sovetinin sədri T.Quliyevdən soruşmuşdu: "Vladimiri harada basdıracağıq?" T.Quliyevin cavabı qısa olmuşdu: "Fəxri Xiyabanda yer artıq hazırlanıb". M.Bağırov nəsə fikirləşib bir neçə addım ataraq deyir: "Yox, onu beynəlmiləl qəbiristanlıqda qohumlarının yanında basdıracağıq".

Sonradan cənazəni M.Bağırovun yaşadığı evə (hazırki Təsviri incəsənət muzeyi - A.Ş.) qoyurlar. Bir müddət sonra isə dəfndə iştirak edən insanlar adlı-sanlı təyyarəçinin basdırıldığı beynəlmiləl qəbiristanlığa yetişdi. Əlbəttə ki, oğlunun həlak olması M.Bağırova çox pis təsir etmişdi və o, oğlu Vladimirin göstərdiyi şücaətlə fəxr edirdi. Ancaq eyni zamanda bu hissini büruzə verməməyə çalışırdı. Qocaman jurnalistlərin xatırladığına görə, M.Bağırov azərbaycanlı əsgər və zabitləri döyüş bölgələrində göstərdiyi qəhrəmanlıqların geniş işıqlandırılmasını onlardan tələb edirdi. Yalnız alman bombardmançısını öz təyyarəsi ilə taran etmiş Vladimir Bağırovun qəhrəmanlığını xatırlağama yasaq qoyulmuşdu.

R.Əhmədov "Mir. Cəfər Bağırov" kitabında yazır ki, M.Bağırova hökm elan edildikdən sonra ona oğlunun məzarı ilə vidalaşmağa icazə verilmişdi. Köhnə çekistlərdən birinin ona danışdığına görə gecə yarısı onu qəbiristanlığa gətirmişdilər. M.Bağırov dinməzcə bir qədər qəbrin yanında durub sonra bir neçə kəlmə söyləyir. Yaxınlıqda olanlar onun dediklərini eşidirlər: "Mənə sənin yanında basdırılmaq qismət olmadı". Bundan sonra o, əyilərək qəbrin üstündən bir ovuc torpaq götürərək öz cibinə qoyur: "Bu, bir çimdik torpaq həmişə mənimlə olacaq və onu mənim qəbrimin torpağı ilə qarışdıracaqlar". Bu sözləri deyib o qəti addımlarla çıxışa doğru addımlayır.

Bu günlərdə biz Rəşid Sadıxovla Vladimir Bağırovun məzarına baş çəkdik. Qəbir baxımsız bir vəziyyətdə idi. Xeyli müddətdir ki, bura heç kimin baş çəkmədiyi dərhal gözə çarpırdı. Halbuki hələ 1997-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Vətən uğrunda döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirilməsi ilə bağlı Qanun qəbul olunub. Və bu insanların xatirələrinin lazımi səviyyədə saxlanılması birbaşa şəhər və rayon başçılarının səlahiyyətlərinə aid edilib. Böyük qəhrəmanlıq göstərərək öz şücaətinə görə dövrünün ən ali mükafatına Lenin ordeninə layiq görülərək beynəlmiləl qəbiristanlıqda dəfn olunmuş cəsur təyyarəçimizin məzarını lazımi səviyyədə saxlamaq birbaşa Yasamal rayon rəbərlərinin işidir.

...Heyif ki, bu gün Qəhrəmanın məzarına aparan yolu heç olmasa ot-ələfdən təmizləmək lazımdır.

**Şərif A. Unudulan qəhrəman** // «525-ci qəzet» - 2006. - 6 may

* * *

M.C.Bağırov vəfalı həyat yoldaşı Məryəm Sergeyeva (1894-1926) əlacsız xəstəlikdən vəfat etdikdən düz 5 il sonra 1930-cu ildə Yevgeniya Alekseyevna Veremskaya (1997-ci il yanvar ayının 17-də dünyasını dəyişmişdir) ilə ikinci dəfə ailə qurmuşdur. Bağırova Yevgeniya Alekseyevna keçən əsrin 30-cu illərində Azərbaycan SSR-in dövlət təhlükəsizliyi sistemində çalışan Aleksey Fmiç Veremskinin və Valentina Mixaylovna Veremskayanın yeganə övladı olmuşdur.

Ali təhsilli musiqi müəllimi və uşaq həkimi olan Y.Bağırova həm də fəal ictimaiyyətçi olmuşdur. O. Böyük Vətən müharibəsi illərində əsgər ailələrinin, yetim qalmış uşaqların, ölkənin döyüş cəbhəsi ərazilərindən Bakıya gətirilən məcburi köçkünlərin, habelə Bakıda müalicə olunan yaralı əsgərlərin çoxsaylı problemlərinin yetərli həlli ilə əlaqədar olaraq səmərəli fəaliyyət göstərmişdir. Y.Bağırova həmçinin Azərbaycan SSR Mərkəzi seçki komissiyasının üzvü kimi respublikada ali sovetlərə keçirilən bütün seçkilərin işində fəal iştirak etmişdir (Bax: "Bakinski raboçi" qəzeti, 22 dekabr 1946-cı il). Bu nigahdan sonra M.C.Bağırovun ailəsində ikinci bir oğlan uşağı da böyümüşdür. O, M.C.Bağırovun 1931-ci ildə yəhudi əsilli Yevgeniya Mixaylovna Veremskaya ilə evlənəndən sonra doğulan Cendir (Bu ad ata və ananın adlarının baş hərflərindən düzəldilmişdir - F.M.). Cen Bakıda orta məktəbi bitirdikdən sonra Moskvada atom texnikası ixtisası üzrə ali təhsil alırdı. Cen Bağırovun atası repressiya edildikdən sonra onun ixtisası məcburi qaydada dəyişdirilmiş və oxuduğu ali məktəbdən çıxarılmışdır. Sonrakı illərdə başqa ali məktəbdə təhsil alan Cen Bağırov texnika elmləri doktoru elmi adı almış və Moskva Kənd Təsərrüfatı Akademiyasının professoru olmuşdur. Cen Mir Cəfər oğlu Bağırov 1994-cü il may ayının 24-də Moskva şəhərində 62 yaşında qəflətən vəfat etmişdir. Yas mərasimi Moskva şəhərində keçirilmiş və mərhum anası ilə bir qəbiristanlıqda dəfn olunmuşdur.

Azərbaycan mətbuatında Cen Bağırovun sağlığında onun həyatı və fəaliyyəti haqqında heç bir məlumat verilməmişdir. Mətbuat səhifələrində dərc olunan ilk yazılar onun vaxtsız vəfat etməsi haqqında qısa xəbərdən ibarət olmuşdur.

Təkcə "Müstəqil qəzet"i Cen Bağırovun vaxtsız ölümündən xəbər tutan kimi ona bir qədər bələd olan tanınmış ziyalı və görkəmli partiya lideri Ramiz Əhmədova müraciət edərək mərhum haqqında öz təəssüratını oxucularla bölüşməyi xahiş etmişdir.

Beləliklə, Cen Bağırov haqqında bəzi maraqlı və təsirli məlumatları geniş ictimaiyyətə çatdıran ilk yazı qəzetin 10 iyun 1994-cü il tarixli nömrəsində işıq üzü görmüşdür.

Cəmi bir neçə cümlədən ibarət olan "...Tarixin yaddaşı güclü və obyektiv olur" adlı bu kövrək təəssüratda dünyadan vaxtsız köçmüş böyük alim həmyerlimizin zəngin mənəvi aləmi, doğma vətəni Azərbaycana bəslədiyi sonsuz məhəbbəti və qəlbini daima narahat edən nisgilli duyğuları oxucuya son dərəcə ustalıqla təsvir edilərək çatdırılmışdır. İnsan kədərinə şərik olan müəllif yazmışdır:

Mən Cen Mircəfər oğlu Bağırovu cəmi bir dəfə - Moskvada Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasında görmüşəm. O, bir qohumunun dəvəti ilə mənim dissertasiya müdafiəmə gəlmişdi. Söhbət əsnasında məlum oldu ki, Cen qəzetlərdə çap olunan elanları izləyir, imkan olduqda azərbaycanlıların dissertasiya müdafiələrində heç kəs tərəfindən tanınmadan bir tərəfdə oturur, həmyerlilərinin

“elmi döyüşünə” baxırdı (O zamanlar dissertasiya müdafiə edənlər mütləq qəzetlərdə elan verirdilər).

İlk dəfə görüşsək də söhbətimiz çox səmimi alındı. Dəqiq elmlər üzrə mütəxəssis olan Cen bir neçə samballı cümlə ilə məşğul olduğum fəlsəfi mövzuya öz münasibətini bildirdi. Kim isə söhbətin axırını dəyişdi: atası ilə əlaqədar sual verdi. O, bu mövzudan qüssəli bir təbəssümlə yan keçməyə çalışsa da, bir çox yazıçı-publisist və jurnalistlərin bu barədə müəyyən şeylər öyrənmək üçün ona tez-tez təkidli müraciətlərini xatırladı. O isə belə görüşlərdən qaçır.

- Bəs özünüz heç olmasa xatirələrinizi yazırsınızmı?

- Yox, yox! Nə yaza bilərəm ki? O zamanlar çox gənc idim.

Evimizdəki ciddi təlim-tərbiyə mənim bütün maraq dairəmi və səylərimi məktəb və mütaliə çərçivəsində saxlayırdı. Atam məşğul olduğu məsələlər haqqında qətiyyən danışmazdı. Ümumiyyətlə biz onu evdə çox nadir hallarda görürdük... Bir də ki, tarixin yaddaşı hər hansı bir adamın yaddaşından həm güclü, həm obyektiv olur...

- Azərbaycan üçün darıxırsınızmı?

- İlk vaxtlar darıxırdım. Sonra özümə bu fikri aşıladım ki, məni orada nə gözləyən, nə də arzu edən var... Amma kiminsə ağzından və ya televiziyadan “Azərbaycan” sözü eşidəndə elə bil ki, məni çağırırlar.

Bu hadisədən bir müddət sonra Cen öz qohumlarına belə bir teleqram göndərdi: “Mircəfər Bağırov doğuldu”. Onun oğlu olmuşdu

Nə əcəblər ki, Cen Bağırov və onun oğlu gənc Mir Cəfər Bağırov haqqında ictimaiyyətə çatdırılan məlumat bu yazı ilə bitmədi.Cen Bağırov vəfat etdikdən sonra nəcib insanlar, onun köhnə dostları və yeni tanışları bu dəyərli vətən övladı haqqında xeyli məlumat toplayıb xalqa çatdıraraq böyük alimin və gözəl insanın parlaq simasını öz həzin xatirələrində məhəbbətlə əbədiləşdirirlər.

**Haşiyə:** Один из нас многие годы жил около “Азнефти” и учился в 6-й школе, что находится рядом с Музеем изобразительного искусства им. Р.Мустафаева. Так вот, в те довоенные годы, вплоть до 1953 года, в здании музея находилась разиденция первого секретаря ЦК КП Азербайджана Мир Джафара Багирова. Мы часто видели его, потому что он любил ходить пешком в сопровождении одного русского майора, заглядывая по дороге в различные учреждения: от райкома партии до детского сада. Беседовал с руководителями учреждений, выясняя положение, и задавал трудные вопросы на предмет владения их своими профессиями. Мы знали, что у М.Дж.Багиров было два сына: старший Владимир, которого мы редко видели, потому что он учился в школе при Дворце культуры им.Ильича, что находится на Баилово. Теперь там главный офис нефтяной компании bp. Да и по возрасту он был старше нас лет на 10.

Второй сын М.Багирова - Джон, учился с нами в 6-й школе, но на два класса ниже. В нашем классе учился Алекпер Мамедов, впоследствии

знаменитый форвард московского “Динамо”. Алик, как мы его называли, был капитаном и тренером нашей команды, а играли мы в сквере, что возле нынешнего музея. Играли мы, как и все мальчишки, шумно, иногда не сдерживая выражения. Как-то, видимо, мы очень погорячились, и в результате к нам подошел один молодой человек, взял мяч, и у нас на глазах порезал его ножом на куски. Обида наша была неимоверная.

Об этом каким-то образом узнал Джон, кстати, это был очень способный мальчик, учился на пятерки, которые получал не из-за отца, а за свои знания. Он был очень скромным парнем и не задавался. Так вот, через пару дней мы сидели в сквере после уроков, соображая, из чего сделать мяч, чтобы тренироваться. В это время к нам подбежал радостный Джон, что-то держа в руках за спиной. Вообще-то м с ним не очень общались, все-таки мы были старше. И вот он неожиданно из-за спины достает новенький, настоящий футбольный мяч и передает его капитану команды - Алекперу Мамедову. После окончания школы Джон, по нашей информации, поступил в Московский авиационный институт, но после ареста отца его оттуда отчислили и перевели в какой-то другой вуз. Потом мы знали, что он долгие годы работал где-то на дальнем Востоке.

**Шарифов А., Багиров М.** История одного письма, которому 65 лет.// Зеркало. - 2004. - 17 июля.

* * *

Böyük Vətən müharibəsi illərində Bakıdakı 6 saylı məktəbdə oxuyurdum. Sinifimizdə sonradan gələcəyin məşhur futbolçusu olan Ələkbər Məmmədov, Məşədi Əyyubov kimi uşaqlar var idi... Bizdən iki sinif aşağıda Mircəfər Bağırovun oğlu Cen oxuyurdu. Ədalət naminə deyim ki, adlarını çəkdiyim hər iki uşaq özlərini məktəbdə həddən ziyadə təvazökar aparar, heç zaman kimsənin qarşısında öyünməzdilər.

**Şərifov A. Gözəl çöhrəli, dərin zəkalı və dəmir iradəli xanım** (Akademik P. Əzizbəyova haqqında). //525-ci qəzet.-2005. – dekabr.

* * *

Я часто видел смирно шествующего в 6-ю школу (нас, хулиганистых ребят захудалой 3-й школы, временно приняли туда, а потом избавлись, переведя в 29-ю: нам мешало наше плебейское происхождение, а 6-я для, т.с., избранных, руководствуясь чувствами техлет) сына “хозяина республики” Багирова, учился двумя классами ниже: ранец на спине голова опущена...

**Гусейнов Ч. Триптих (3): Мир-Джафар Багиров** // Реальный Азербайджан. - 2006. - 11 августа.

## Xaçmaza gəlirdi

Cem hər il balaca Mircəfərlə birgə Azərbaycana gələrmiş. Bir vaxtlar atasının hakimi-mütləq olduğu bir diyarda yeganə düşəcəyi yer Xaçmazdakı bibisi nəvəsi Məmmədtağının evi idi. Bu ölkədə Cemin adı təkcə bir birliyin arxivində qalıb. Xaçmazdakı "Ovçular birliyi"nin... Yaxşı ovçu imiş. Quşu gözündən vurarmış. Lap Mircəfər kimi... Mircəfər iki dəfə evlənib. Tatar əsilli Mariya adlı birinci həyat yoldaşından olan oğlunun əsl adı Cahangir olub. Amma hamı onu Vladimir (Volodya) çağırarmış. Məzarı Yasamal qəbiristanlığındadır. İkinci həyat yoldaşı Yevgeniya Mixaylovna isə yəhudi əsilli olub. Bu qadından olan oğlunu Mircəfər Cem adlandırıb.

Cem - Cəfər və Yevgeniya adlarının qovuşuğu kimi götürülüb. Eşidəndə ki, Cem atası haqqında xatirələrini toplayacaq, onu Moskvadakı ziyafətlərin birində zəhərləyib öldürüblər. Yevgeniya Mixaylovna isə ötən ilin 17 yanvarında dünyasını dəyişib. Nəslin yeganə yadigarı hazırda tələbə olan Mircəfərdir.

**Mahirqızı V. Qalxın, Mircəfər gəlir!** Mircəfərin bacısı nəvəsi Məmmədtağı Bağırov Xaçmazdan "Bu gün"ə gəldi. //

Bu gün- 1998.- 13 dekabr.

***

Cemlə əlaqə saxlayırdım, hər il Xaçmaza qonaq gəlirdi.

**Rafiq. Bunu M.Bağırovun bacısı nəvəsi deyir.** //Yeni Müsavat. - 2000. - 23 mart.

* * *

**Hörmətli Taleh müəllim!**

"Müstəqil qəzet"in 26 aprel 1995-ci il tarixli sayında Mircəfər Bağırovun oğlu Vladimirin atasına yazdığı məktubu maraqla oxudum. Mən M.C.Bağırovun fəaliyyəti ilə bağlı çoxsaylı materialları, xatirələri və maraqlı söhbətləri çox eşitmişəm. Respublika Milli Təhlükəsizlik Nazirliyindəki M.C.Bağırovla bağlı sənədlərlə yaxından tanışam. Xalq yazıçıları Mirzə İbrahimovun, Əli Vəliyevin, akademiklər Həsən Əliyevin, İmam Mustafayevin, pambıq ustası Qüdrət Səmədovun, professorlar Məzahir Abbasovun, Rizvan Zeynalovun və başqalarının xatirələrini çox eşitmişəm. Bu şəxslərin hamısı "Allah ona rəhmət eləsin!" - deyiblər. Mən 1994-cü ilin fevral ayında M.C.Bağırovun Moskvada yaşayan oğlu Cen Bağırovla dəfələrlə əlaqə saxladım. Ailəsi ilə, oğlu Mircəfərlə danışdım. 94-ün aprel ayının 21-də Moskvada onunla görüşdüm. Cen Bağırov Moskvada Timiryazev adına Akademiyada kafedra müdiri, texniki elmlər doktoru, professor idi. Mən ona atası haqqında xatirə yazmağı xahiş etdim. Sonra Serqo

Beriyanın atası haqqında xatirə yazdığı –"Mənim atam Lavrenti Beriyadır" kitabını ona göstərdim. Gözləri doldu. Serqo ilə yaxın olduqlarını qeyd etdi.

Generallar Arif Heydərov, Səlahəddin Kazımovu xatırladı. Sabir Hüseynovun, Fətulla Hüseynovun doktorluq dissertasiyasının müdafiəsində iştirak etdiklərini yada saldı. Mənim atam heç vaxt öz xalqının düşməni ola bilməzdi, dedi. Bu N.S.Xruşşov kimi, A.İ.Mikoyan kimi rəzillərin və satqınların fitvası idi. Atam haqqında əsl həqiqət üzə çıxacaq, dedi. Cenlə atası haqqında kitab yazmaq barədə müqavilə bağladım. Bakı, Quba, Xaçmaz üçün çox darıxmışam, - dedi. Ayrılanda Bakıda dəfn olunmuş qardaşı Cahangirin qəbri üstünə çiçək qoymağı və yasin oxutmağı xahiş etdi. Qəbrin yerini elə diqqətlə dedi ki, Bakıya dönəndə sürücüm Tahirlə heç kimdən soruşmadan qəbri tapdıq və onun xahişini məmnuniyyətlə yerinə yetirdik... Bir ay sonra çalışdığı akademiyanın bir ziyafətində zəhərlənib ölməsini eşitdim. Anası Jenya xanıma, həyat yoldaşı Valerya xanıma və oğlu Mircəfərə başsağlığı verdim...

**Professor Cen Bağırovun (Cen - Cəfər və Yevgeniya adlarından götürülübdür)** Xaçmazda yaşayan ən yaxın qohumu Tağı Bağırova yazdığı məktubu sizə təqdim edirəm.

Hörmətlə:

**Əlican Əliyev,**

"Gənclik" nəşriyyatının direktoru

**Əziz Tağı, salam!**

Bilmirəm noyabrın 29-da səhər telefona nə olmuşdu? Dəstəyi Valerya qaldırmışdı və demişdi ki, məni çağırır. Mən onda yataqdan durmamışdım. Aparata yaxınlaşanda artıq dəstəyi yerə qoymuşdular.

Necəsən? Səidə, Mətləb, qızlar, nəvələr necədir? Bizdə vəziyyət pisdir. Anam zorla hərəkət edir. Hərdən yıxılır, müstəqil bir iş görə bilmir. Valeryanın anasının vəziyyəti sən gördüyün kimidir, heç bir dəyişiklik yoxdur. Valerya çox işləyir. Qüvvəsi xaricində hərəkət edir, hər bir rubl üçün böyük qüvvə sərf etməli olur. İndi mən yox o, ailəni dolandırır. Bundan başqa evin təsərrüfat qayğıları da onun çiyinləri üzərindədir. Buna görə də indi onun sağlamlığı korlanmışdır. Mən əvvəlki kimi işləyir və təqaüd alıram. İndi iş mənə əvvəlki kimi mənəvi zövq vermir. Axı indi nə elm nə elmi xidmətlər, dərəcələr və adlar heç kimi maraqlandırmır. Mən ancaq ailə büdcəmizi hardasa tamamlamaq üçün işləyirəm. Cəfər təhsildə bizi sevindirmir, Aydın bizi tamam unudub, çox nadir hallarda zəng edir.

Sabahkı günə inamı və ümidi itirərək, bax beləcə kədərli ömür sürürük. Ora-bura az gedir, demək olar heç kəslə görüşmürük. Ov tüfəngimizi toz basıb, indi burada ancaq adamları ovlayırlar.

Bizim üçün elə bir həyat şəraiti yaradıblar ki, bilmirəm nə vaxt görüşəcəyik.

Xahiş edirəm mənim adımdan atanın, ananın və Sima xalamın qəbirlərini ziyarət elə və onlara baş əy.

Sizə xoş arzularla anamızın, Valeriyanın, Cəfərin, Allanın və özümün salamımı yetirirəm. Allah qoysa görüşərik.

Cen

3dekabr 1993-cü il

**Bax:** "Müstəqil qəzet", 3 may 1995-ci il

* * *

Mircəfər Bağırovun oğlu Cen Moskvada namizədlik dissertasiyamın müdafiəsində iştirak etdi. O, Azərbaycanın həyatı ilə maraqlanır, respublikanın, həmyerlilərinin uğurlarına sevinirdi. Vaxtsız vəfat edən Cenin düşüncəli təbəssümlə dediyi bu sözlər indi də qulaqlarımdadır: "Atam deyərdi ki, bizim xalq gözəl xalqdır. Həmişə öz xalqınla ol".

**Həmidova H. Mircəfər Bağırov Moskvada yaşayır.** Azərbaycan Kommunist Partiyasının (AKP) sədri Ramiz Əhmədovla müsahibədən. // Ekspress. - 2000. - 18 fevral.

* * *

***"Mənim atam heç vaxt öz xalqının diişməni ola bilməzdi".***

**C.M.Bağırov**

Mir Cəfər Bağırovun ikinci oğlu Cen Bağırovun epiqrafa çıxardığımız bu etirafıтda necə böyük həqiqət var, Bağırov fenomeninə büllur güzgüdən baxanlar üçün...

Sementdən tökülmüş başdaşında bir budağı sınmış iki budaqlı ağac təsvir edilmiş və Lenin ordeni ilə təltif olunduğu fərman əksini tapmışdır (Bu barədə gələn sayımızda daha ətraflı yazacağıq). Cen Moskvada Timiryazev adına Akademiyanın kafedra müdiri, texnika elmləri doktoru, professor idi. Nə qədər ki, başını aşağı salıb alimliyi ilə məşğul idi, gözdən uzaq, könüldən iraq dolanırdı, kimsənin onunla işi yox idi. Elə ki, nankorlarımız eşitdilər ki, Cen Bağırov (Cen - atası Cəfər, anası Yevgeniya adlarından götürülmüşdür) Serqo Beriya kimi atası haqqında xatirələrini yazacaq və əsl həqiqətləri üzə çıxarıb tarixləşdirəcək, çalışdığı akademiyanın bir ziyafətində zəhərləmişdilər...

**Bax: Fenomenlər! Fenomenlər! Fenomenlər!** // Molla Nəsrəddin (Tiflis). - 1995. – №1, - s.3.

* * *

Наша делегация побывала на московском заводе дорожного машиностоения. Нас сопровождал один из руководящих работников завода. Видим, навстречу идет подтянутый, симпатичный, выще среднего роста,

человек. Мне представили его: это сын Мир-Джафара Багирова. Да, этот молодой человек учился при жизни М.Д.Багирова в авиационном институте.Однако после заверщения учебы ему не разрешили работает по специальности, и он попал на этот завод. Я услышал о нем исключительно положительные отзывы от заводчан.

**Ибрагимов И. О. моем времени.-**Б:, Азерб. Госд. Изввa.-1993. с.131.

* * *

- M.Bağırovun nəslindən indi kim yaşayır?

- Bağırovlar dörd qardaş olublar: Mirmusa, Mirheydər, Miribrahim və Mircəfər. Onlardan yalnız son ikisi ailə qurub. Miribrahimin indi iki qız nəvəsi Bakıda yaşayır. Mircəfərin iki oğlu olub. Böyük oğlu Cahangir - Vladimir təyyarəçi idi və 1943-cü ilin iyununda döyüşlərdə həlak oldu. Evlənməmişdi. M.Bağırovun kiçik oğlu, texniki elmlər doktoru, Moskva Kənd Təsərrüfatı Akademiyasının professoru Cen yeganə övladına atasının adını qoydu və qohumlarına belə bir teleqram göndərib: “Родился Мирджафар Багиров”

- Cen 1994-cü ilin may ayında qəflətən vəfat etdi. Mircəfər Cenoviç Bağırovun isə bu il aprel ayının 26-da 22 yaşı tamam olacaq.

**Həmidova H. Mircəfər Bağırov Moskvada yaşayır.** Azərbaycan Kommunist Partiyasının (AKP) sədri Ramiz Əhmədovla müsahibəsindən. // Ekspress - 2000. - 18 fevral.

* * *

Mir Cəfər Bağırovun ikinci oğlu Cenin 2002-ci il avqustun 9-da anadan olmasının 70-ci ildönümü tamam oldu.

Cen də qardaşı Cahangir kimi Bakıdakı 6 saylı məktəbi əla qiymətlərlə bitirmişdir. Tbilisi şəhərindəki hərbi məktəbə daxil olmuşdur. 1952-ci ildə Moskvadakı Jukovski adına Aviasiya Akademiyasına qəbul edilmişdir.

1954-cü ildə xalqımızın Moskva düşmənləri M.C.Bağırovu istintaqa cəlb etmək ərəfəsində oğlunu da akademiyadan kənarlaşdırmışlar. O, təhsilini Moskva Kənd Təsərrüfatı İnstitutunda davam etdirmişdir. Fitri istedada malik olan Cen Bağırov 1960-cı ildə isə texnika elmləri doktoru adını almışdır. Bir neçə kitabı nəşr edilmişdir. Fəqət əcəl vaxtsız gəlmişdir: Moskva Kənd Təsərrüfatı Akademiyasının professoru 1994-cü ii mayın 24-də ziyafət zamanı qida zəhərlənməsindən vəfat etmişdir. Üzərində işlədiyi “Atam Mir Cəfər, oğlum Mir Cəfər” kitabı yarımçıq qalmışdır.

Hazırda M.C.Bağırovun 24 yaşlı nəvəsi Mircəfər qürbətdə, qardaşı nəvəsi Yaxşıxanım Bakıda yaşayır. Mir Cəfər Bağırovun özünün və anası Yaxşıxanımın adını daşıyanlardan muğayat olaq!

**Qurban T. Mircəfər Bağırov. Yalan və həqiqətlər.** // Yeni zaman. - 2002. - 22 avqust

* * *

**Mircəfər Bağırovun oğlu vəfat etmişdir**

May ayının 24-də Moskva şəhərində texniki elmlər doktoru, Moskva Kənd Təsərrüfatı Akademiyasının professoru Cen Mircəfər oğlu Bağırov 62 yaşında qəflətən vəfat etmişdir. Yas mərasimi Moskva şəhərində keçirilir.

**Bax:** "7 gün" qəzeti, 28 may 1994-cü il

* * *

**Mircəfər Bağırovun yeganə varisi Hindistanda vəfat edib**

Uzun illər Azərbaycan KP MK-nın birinci katibi işləmiş Mircəfər Bağırovun yeganə varisi olan nəvəsi Mircəfər Bağırov Hindistanda vəfat edib. APA-nın şimal bürosuna verilən məlumata görə, mərhum Moskva şəhərindəki əczaçılıq firmalarının birində işləyib.

O, ötən ilin dekabrında kommersiya fəaliyyətilə bağlı Hindistana gedib. 27 yaşlı Mircəfərin hansı şəraitdə vəfat etdiyi məlum olmadığından, onun ölümü ilə bağlı müxtəlif şaiyələr gəzir. Mircəfər Bağırov Moskvada atası Cen Bağırovun uyuduğu qəbiristanlıqda dəfn edilib. Mircəfər Bağırovun vəfatını Moskvadakı erməni diasporunun sevinclə qarşıladığı da bildirilib. Mənbənin bildirdiyinə görə, həm mərhumun işlədiyi firmada, həm də Hindistanda əczaçılıq sahəsində ermənilər üstünlük təşkil edib. Mərhumun yaxınları Bakı və Qubada yas mərasimi keçiriblər.

Qeyd edək ki, uzun illər Azərbaycana rəhbərlik etmiş Mircəfər Bağırovun böyük oğlu Cahangir Bağırov Böyük Vətən Müharibəsində həlak olub. Moskvada yaşayan ikinci oğlu Cen Bağırov isə Rusiya paytaxtında dünyasını dəyişib.

**«Bakı-Xəbər» qəzeti.** - 8 aprel. - 2005-ci il

**Qeyd:** Mir Cəfər Bağırovun yeganə varisi Mir Cəfər Cen oğlu Bağırov 1978-ci il aprel ayının 26-da Moskvada anadan olmuşdur. Onun 2005-ci il aprel ayının 26-da 27 yaşı tamam olacaqdı. Çox təəssüflər və heyiflər olsun ki, gənc Mir Cəfərə bu günü görmək qismət olmadı. Bu acı xəbər alınan kimi Bağırovsevərlər tərəfindən Bakının Sovetski deyilən ərazisində yerləşən Şah Hüseyn məscidində unudulmaz hüzn məclisi keçirildi və Azərbaycan rəhbərinə olan dərin hörmət və məhəbbət bir daha nümayiş etdirildi.

M.C.Bağırovun böyük həyat yolunu özündə əks etdirən bu sənədlər və materiallar haqqında danışarkən mövzu ilə bağlı olan daha bir mühüm məsələ barəsində qısa da olsa söhbət açmaq lazımdır. Məlum olduğu kimi Xruşşov başda olmaqla Kreml separatçıları 1953-cü il hadisələrindən sonra təkcə M.C.Bağırovu deyil, onun bütün ailə üzvlərini, qohum-əqrabasını bir sözlə Bağırovlar nəslinin kökünü kəsməyi qarşılarına təxirəsalınmaz vəzifə kimi qoymuşlar.

Kreml ştreyxbrexerçiləri bu rəzil məqsədlərini həyata keçirmək üçün M.C.Bağırov tutduğu yüksək vəzifələrdən şərlənərək çıxarılan günün səhərindən etibarən onun Bakıda, Qubada, Moskvada və bir çox başqa yerlərdə yaşayan ailə üzvlərini, doğmalarını, hətta uzaq qohumlarını aramsız təqiblərə məruz qoymuşlar. İş o yerə çatmışdır ki, Sov. İKP MK-nın iyul (1953-cü il), Azərbaycan KP Mərkəzi Komitəsinin və Bakı şəhər partiya komitəsinin birləşmiş plenumlarının qərarlarını yerlərdə idarə, müəssisə, kolxoz, sovxozlarda və s. keçirilən yığıncaqlarda, ilk partiya təşkilatlarında müzakirəsi işinin təşkili üçün minlərlə fəal ayrılmış və yerlərə getməzdən əvvəl onlar üçün xüsusi seminarlar, təlimat müşavirələri keçirilmişdir. Bu zaman yerlərə gedən fəallara və çoxsaylı iclasları təşkil edən ilk partiya təşkilatlarına bir vəzifə olaraq tapşırılmışdır ki, onlar öz işlərini necə olursa-olsun M.C.Bağırovun xalq arasında nüfuzdan salınması məsələsinə tam uyğun şəkildə qursunlar, Xruşşovun, onun quldur dəstəsinin müdafiə olunmasını hər vasitə ilə təmin etsinlər.

**Haşiyə:** - Əminiz tutulandan sonra yəqin ki, ailənizə qarşı münasibət də dəyişdi.

- Əlbəttə,dəyişdi. Dünən üzümüzə gülənlər bu gün üz çevirdilər. Nə bilim... Danışmağa dəyməz.

- Təqib olunurdunuzmu?

- Təqib elə bu yaxınlara qədər davam edirdi. Əmim tutulan günün səhərisi Qubada vaxtilə yaşadığı evin qapılarını bağladılar. Burada Bağırovun ailəsi yaşasa da həmin evi həm də muzey kimi qoruyurdular, başqa respublikalardan və xaricdən gələn qonaqlara göstərirdilər. Həmin evə dəyişiklik etməyə bizi qoymurdular. Sonra gəldilər ki, siz nə qədər vaxtdır işıq-qaz pulu vermirsiniz, gərək dövlət hesabına 56 min manat keçirəsiniz. Beləliklə, evi əlimizdən aldılar. Həmin ev Qubada indi də durur. Ancaq xeyli hissəsi sökülüb. Nə isə... Sonra bacısı oğlanlarını, başqa qohumlarını partiyadan və işdən çıxardılar.

Mir Cəfər Bağırovun oğlu xalqın övladları kimi müharibəyə gedib, qəhrəmanlıqla həlak olub. Onun nə təqsiri var ki, qəbrinə toxunurlar, o dünyada da onu dinc qoymurlar? Bir dəfə zəng oldu. Götürdüm. Dedilər tez özünü yetir, Cahangirin qəbrinin ətrafını uçururlar. Gedib nə görsəm yaxşıdır. İlahi qəbri nə günə qoyublar! Bunu televiziyada işləyən Oktay Babazadə adlı bir nəfər eləmişdi ki, atam və anamın qəbrini genişləndirirəm. Belələrinə nə deyəsən?

**Bağırova T. Həqiqətin bir, yalanın min üzü var.** - M.C.Bağırovun əmisi qızı T.Bağırova ilə müsahibə. **Bax: Əhmədov R. Mir Cəfər Bağırov xatirələrdə. - B.:** - “Nurlan” nəşriyyatı. -2006. - 475-476.

1955-ci ildə həbs olunanda evində axtarış aparılıb. Axtarış zamanı 300 rubl pul tapıblar. Moskvadakı evində indi də köhnə mebeli və xalçaları qalıb.

**Vaqif. Bunu M.Bağırovun bacısı nəvəsi deyir.** // Yeni Müsavat. - 2000. - 23 mart.

Sonra da "xalq düşməni" damğası vurulan ailə üzvlərinin - ana və oğulun Moskva həyatı başlayır. Cek o vaxt məşhur Jukovski adına Aviasiya Akademiyasında təhsil alırdı, onu böyük gələcək gözləyirdi. Lakin bütün qapılar üzünə bağlanır və akademiyadan kənar edilir. Başqa cür də ola bilməzdi. "Xalq düşməni"nin oğlu idi axı. Sonra həyatı başqa səmtə - başqa peşəyə yön alır. Kənd təsərrüfatı mütəxəssisi olur. Tanınmış professora qədər ucalır: qabiliyyəti, qeyri-adi biliyi və savadı, başlıcası isə prinsipiallığı sayəsində. Cek sübut etdi ki, "xalq düşməni"nin övladı hər şeyə qadirdir, heç bir çətinlik, sədd, maneə onu istəyindən döndərə bilməz. Tanrı Cekə də bir oğul payı verdi. Adını Mircəfər qoydu. Beləcə, nəsli yaşatdı balaca Mircəfər. Nəvə Mircəfər Bağırov oldu. Cek 7 il əvvəl ömrünü oğluna bağışlayıb dünyasını dəyişdi.

Bu gün nəvə Mircəfər ömrünün bahar çağını yaşayır. 22 yaşı var. Anası ilə Moskvadakı ikiotaqlı mənzildə ömür sürür. Vaxt gələcək, illər bir-birini qovacaq, gənc Mircəfər babası haqqında daban-dabana zidd olan fikir, mülahizə, dedi-qodu, şübhə və müəmmalardan xilas olacaq, tarix öz "səhvlərini" onun hüzurunda etiraf edəcək. Kaş o vaxt tez gələydi...

M.Bağırov Stalinin ölümündən sonra vəzifədən götürülür və həbs edilir. Evinə hücum olunur, ciddi və dəqiq axtarış başlanır. Çoxları elə bilirdi ki, evində böyük xəzinə aşkar ediləcək. Yoxlamadan sonra hamı mat-məəttəl qalır. Sən demə, məmləkətin birinci şəxsi "bir həsir imiş, bir məmmədnəsir". "Xəzinədən" cəmi-cümlətanı 300 rubl tapılıb, bir də Nuh əyyamından qalma köhnə mebel və bir neçə adi xalça-palaz. Bax, buna deyərəm rəhbər şəxsin hər cür təm-təraqdan uzaq gözütox şəraiti!

**Hacızadə İ. Mircəfər Bağırov yaşayır? Bəli, özü də Moskvada!** // Gələcək gün. - 2001. - 30 iyun.

* * *

**Oğul ata, ata oğul təəssübünü çəkər**

Cahangir Bağırovun atası Mir Cəfərə yazdığı məktubu gələn saylarımızda oxuculara çatdıracağıq. Ancaq indiki halda Məzahir Abbasovun onun haqqında ürəkdolusu açdığı söhbətə gəlincə deməliyəm ki, qaynarbaxışlı, iti şüurlu, sözündən və iradəsindən dönməz olan Cahangirlə bir alayda xidmət etmiş, yol yoldaşı olmuş, süfrə, başında əyləşmiş, salam-kalam kəsmişdilər. Yüksək dərəcəli qırıcı təyyarəçi olmuş, komandanlığın bütün tapşırıqlarını könüllü yerinə yetirmiş, ölümlə üzbəüz gələcəyindən əsla çəkinməmişdir. Xidməti vəzifəsini qəhrəmancasına yerinə yetirərkən ölümündən sonra Lenin ordeni ilə yanaşı, deyilənə görə Sovet İttifaqı Qəhrəmanı Qızıl Ulduz medalı ilə təltif olunmuş, lakin atası ondan imtina etmişdir. Qubadakı həmvətənləri adına bağ salmış, çinar ağaclarını elə basdırmışlar ki, yuxarıdan baxanda, "Cahangir" oxunmuş. Bütün bunlar, xüsusən Cahangirin gəncliyi barədə əmisi qızı Teyyubə çılğınlıqla danışar, əmisioğlunun xatirəsini əbədiləşdirmək, haradasa həllini görməyi arzulardı. Bəli,

Cahangirin şəkil və portretləri əsasında belə büst-heykəl yaradıldı, Qubadakı "Cahangir" xiyabanında vətəndaşlıq yerini də tapdı. Ancaq hamıya məlum olan igid əskər əvəzinə, abidənin altında "Naməlum əsgər" yazdılar...

Bu barədə Teyyubə ananın qızı Təranə elə qəlbağrısı ilə söhbət açdı ki, ürəyimin başı töküldü. "Anam ölməzdi, əmisi ilə əmisi oğlunun qübarından bağrı çatdadı. Vəsiyyət etdi ki, Cahangirlə yanaşı dəfn edək onu Yasamal qəbristanlığında, əmisi Mir Cəfərin yerində..."

Tənbəllik etməyib bir dəstə güllə getdim cəmi bir neçə kərə söhbət etdiyim və bu söhbətlərilə məni ovsunlayan rəhmətlik Teyyubə ananın ziyarətinə. Üstü hələ də torpaq idi məzarının...

İşdən-gücdən vaxt tapıb, yol-izdən ayaq kəsiləndən sonra birini ər, birini ata kimi gəlib ziyarət edəndə əyləşərdi Abbas kişinin oğlu öz əlilə gətirib qoyduğu oturacaqda.

Günəş şüasının işıqlandırdığı sement başdaşı üzərindəki bu sözlər dəydi gözümə:

Vladimir - Cahangir Mir Cəfər oğlu Bağırov 1919-cu il oktyabrın 6-da anadan olmuş, 1943-cü il iyunun 5-də cəbhədə nemes-faşist işğalçıları ilə mübarizədə qəhrəmanlıqla həlak olmuşdur.

УКАЗ

Президиума Верховного Совет СССР о награждении гвардии старшего лейтенанта. Багиров В.Д. орденом Ленина.

За образцовое выполнение боевых на фронте борьбы с немецкими захватчиками о проявленные при этом доблесть и мужества наградит гвардии старшего лейтенанта

Багирова

Владимира Джафаровича

Орденом Ленина.

Москва, Кремл. 9 июня 1943 г.

Cismən ayaqlarımı dalımca sürüyüb qəbiristanlıqdan aralansam da, mənən ayrıla bilmədim. Qəlbimdən dilimə hopan sözləri təkrar edə-edə uzaqlaşdım:

- Allah ruhunuzu şad etsin, yeriniz behiştlik olsun, ay dünyasını vaxtsız dəyişənlər!

**Bax: "Molla Nəsrəddin" jurnalı (Tiflis).** - 1997 - №2. -s.13.

* * *

Mir Cəfər Bağırovun hər iki oğlu xalqımızın başını uca etmişdir. Onların həyatı gənclərimizə örnəkdir. Cahangir yeniyetməlik çağlarından təyyarəçi olmaq arzusu ilə yaşayır və 1938-ci ildə Bakıda təyyarəçilik kursunu bitirir. Sonra hərbi-dəniz təyyarə məktəbinə daxil olur. İkinci dünya müharibəsi başlayanda leytenant

rütbəsində ön cəbhəyə yollanır. 1942-ci ildə Serpuxov ətrafındakı döyüşlərdə yaralanır. Sağaldıqdan sonra yenə ön cəbhəyə tələsir. Qırıcı təyyarəçi döyüşlərdən birində 11 düşmən təyyarəsindən 7-sini vurub salır. Qeyri-bərabər toqquşmada Cahangir atası kimi ölümün gözünə dik baxır: təyyarəsini faşist təyyarəsinə vurur və şəhid olur.

1943-cü ilin iyun ayında qırx yeddi yaşlı Azərbaycan rəhbəri göz yaşlarını ata qəlbinin dərinliklərinə axıdır. Sinə daşında əski əlifba ilə “Rahat yat, rəfiqəm” yazılmış ana məzarının yanında iyirmi dörd yaşlı şəhid balanın məzarı qazılır...

Cahangir Mir Cəfər oğlu Bağırov ölümündən sonra Lenin ordeni ilə təltif olunmuşdur. Quba ictimaiyyəti onun adına bağ salmışdır - Cahangir bağı! Orada büst-heykəli də ucaldıldı. Ancaq Mir Cəfər Bağırovun adına qara yaxanlar şəhid oğlunun da adını qaraladılar. Abidənin altında “Naməlum əsgər” yazdılar.

Məlumu naməlum edənlərə ar olsun!

**Qurban T. Mircəfər Bağırov. Yalanlar və həqiqətlər.** // Yeni zaman. - 2002 - 22 avqust

* * *

Elə ki, nankorlarımız eşitdilər ki, Cen Bağırov (Cen - atası Cəfər, anası Yevgeniya adlarından götürülmüşdür) Serqo Beriya kimi atası haqqında xatirələrini yazacaq və əsl həqiqətləri üzə çıxarıb tarixləşdirəcək, çalışdığı akademiyanın bir ziyafətində zəhərləmişdilər...

**Əliyev Ə. Fenomenlər! Fenomenlər! Fenomenlər!** // Molla Nəsrəddin (Tiflis). - 1996 - №l, s.13.

* * *

### Rejim atasını sındırmışdı

Amma ata evin ağsaqqalı sınıdırılmışdı. Vaxtilə Donetsk Kömür Hövzəsinin Təchizat İdarəsinin rəisi işləyən atasını Stalin rejimi özünə təslim edə bilmişdi. Düzdür, o, azadlıqda idi, amma aqibəti ilə barışmışdı. Kolxozda işini qurtarandan sonra Quran oxuyurdu, Allahla gündə beş dəfə söhbət edir, namaz qılırdı. Aqibəti ilə barışmış ata çıxış yolunu Allaha tapınmaqda, övladlarının xoşbəxt gələcəyi üçün dua edib, yalvarmaqda görürdü. Və günahsız olduqları halda səfalətə, zülmə məhkum edildikləri rejimin sonunun yetişməsini arzulayırdı. Rejim sona yetdi.

İnstitutda oxuyanda o vaxt partiyaya qəbul olunmaq şərəf sayılırdı. Məni M.Bağırovun qohumu olduğuma görə, qəbul etmədilər. Bu səbəbdən təqaüd məsələm də şurada müzakirə olundu.

**Quluzadə M. Alim, qurucu, nazir Hiiseyn Bağırov** (Tarix elmləri doktoru, professor H.Bağırovla müsahibədən). *II* -Etimad.-2001-26 may-1 iyun.

Lakin açıq-aydın antikommunist və antisovet mövqeyində duran Xruşşovun və onun satqın quldur dəstəsinin Bağırovlar ailəsinə və nəslinə qarşı törətdikləri repressiya əməlləri bütün bunlarla sona yetməmişdir. Kremlin xüsusi təkidli tapşırıqları əsasında Azərbaycanın o zamankı rəhbərləri T.Yaqubov, İ.Mustafayev və başqaları tərəfindən canı-dildən həyata keçirilən bu təqiblər, basqılar və qanunsuzluqlar M.C.Bağırovun doğmalarının yaşadığı Quba şəhərində misli görünməmiş bir amansızlıqla icra olunmuşdur. O zaman Xruşşovun tələbi əsasında M.C.Bağırovun təqaüddə olan ahıl yaşlı bacısı Seyid Fatma Bağırova (9.V.1894-9.V.1960) binəyi-qədimdən yaşadığı ər evindən çıxarılmış və mənzildəki əşyalar kiçik bir daxmaya yığılmışdır. Bu azmış kimi o, guya illərdən bəri işlətdiyi elektrik enerjisinin pulunu ödəmədiyinə görə məhkəməyə verilmiş və haqqında saxta cinayət işi qaldırılmışdır. Bu qondarma məhkəmə işi bütün mərhələləri keçərək SSRİ Ali Məhkəməsinin kollegiyasına qədər gedib çatmışdır. Maraqlıdır ki, ağbirçək qadın bu uzun və üzüntülü məhkəmə çəkişmələri zamanı baş verən çətinliklərə və haqsızlıqlara mərdliklə dözmüş və fenomen qardaşı kimi polad iradə nümayiş etdirərək son məhkəmə instansiyasında böhtançılara qalib gəlmiş və bəraət qazanmışdır. Elə o zaman Seyidfatma Bağırovanın el arasında deyildiyi kimi “canlara dəyən”, gülərüzlü və mehriban gənc kimi tanınan və sevilən hüquqşünas oğlu Adil Həsən oğlu Bağırov (9.X.1927-20.II.1981) işlədiyi müəllim vəzifəsindən azad edilmiş, partiya sıralarından çıxarılmış və Qubanın ətrafındakı 12 nömrəli sovxoza təsərrüfat işinə göndərilmişdir.

M.C.Bağırovun Qubada yaşayan uzun illərdən bəri quruculuq və xeyriyyəçilik işlərilə məşğul olan bacısı və qardaşı uşaqları Seyidağa Murtuz oğlu Bağırov və Seyidməmməd Mirzəağa oğlu Bağırov da ən ağır şəkildə repressiyaya məruz qalmışlar. Onların hər ikisi heç bir əsas olmadan hələ 1953-cü ildə tutduqları vəzifədən azad olunmuş, partiya sıralarından çıxarılaraq Qubadan sürgün olunmuşlar. Seyidağa Bağırov bir müddət Xaçmaz konserv zavodunda mıxçalan vəzifəsində işləməyə məhkum edilmişdir. Seyid Məmməd Bağırovun bacıları Seyid Nərgiz, Seyid Səkinə və onların digər qohumları həmin illərdə zaman-zaman süni yaradılmış çətinliklərlə üzləşmiş, uzun illər işsiz qalmış və ehtiyac içərisində yaşamışlar. Bu dövrdə tüğyan edən repressiya hətta, M.C.Bağırovun ailəsi ilə Bakıda yaşayan qardaşı qızı Teybə Bağırovadan da (10.VII.1996-29.VII.1996) yan keçməmişdir. Rəsmi dairələrin təzyiqi ilə o, hamilə ikən tanınmış hüquqşünas olan əri Ağamehdi Hüseynovdan boşanmalı olmuşdur. Lakin A.Hüseynov bundan sonra da dinc buraxılmamış və uzun çəkən məhkəmə istintaqına cəlb olunmuşdur. Qeyd etmək lazımdır ki, Bağırovlar nəslinə və şəcərəsinə qarşı haqsız hücumlar, ləyaqətsiz hərəkətlər və iyrənc basqınlar sonrakı illərdə də uzun müddət davam etmiş və heç zaman birdəfəlik kəsilməmişdir.

**Haşiyə:** Mir Cəfər Bağırov da illərlə baltalandı və bu günün siyasi cəngəlliklərində həmin baltaların səsi ara-sıra yenə də eşidilir.

Əhmədov R. Mir Cəfər Bağırov xatirələrdə. B.: - Nurlan nəşriyyatı. -2006. -s.8

Uzun illər boyu partiyadan və xalqdan xəlvəti olaraq Kremldə özünə yuva quran və İ.Stalinin ölümündən sonra baş qaldırmağa cəsarət edən Xruşşov-Malenkov-Suslov quldur dəstəsinin yeritdiyi satqın siyasətin əsirinə çevrilən yerli başabəla rəhbərlərin dirijorluğu ilə işə salınan bu ağır baltalar nə qədər qəzəblə və zərblə vurulsa da Bağırovlar nəslinin və şəcərəsinin kökünü kəsib axıra çıxa bilməmişdir. Çünki, bu şəcərənin kökü və rişələri ana torpağın əlçatmaz dərinliklərinə işləmiş onun əvvəli isə xalqımızın tarixi, dini və onun ən ülvi müqəddəslərilə qan-can tellərilə bağlı olmuşdur.

Odur ki, xalqımız həmişə olduğu kimi indi də Bağırovlar nəslinə və Bağırovlar şəcərəsinə dərin hörmət və məhəbbətlə yanaşır və bu nəslə olan dərin ehtiramını göz bəbəyi kimi qoruyaraq əbədi diqqət mərkəzində saxlayır.

**Haşiyə:** Qubaya ilk gələn əlbəttə ki, Mircəfər Bağırov haqda maraqlanır. Biz də maraqlandıq. Üzeyir dayı (Müəllifə bələdçilik edən Quba şəhər sakini - F.M.) Mircəfərin yaxın qohumlarının indi də Qubada yaşadığını və onların çox nüfuzlu bir seyid nəsli olduqlarını söylədi.

Rövşənoğlu K. “Qərib Məmmədov Qubanın torpaqlarını satıb” // Yeni müsavat. - 2005.-13 sentyabr

* * *

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai hərəkatlar Mərkəzi Dövlət Arxivində Mir Cəfər Bağırovun tərcümeyi-halı və uçot vərəqəsi saxlanılır. Bu sənədlərdən aydın olur ki, M.C.Bağırovun ata nəsli Dərbənddən, ana nəsli Qubadandır.

Qurban T. Mircəfər Bağırov. Yalan və həqiqətlər. //Yeni Zaman. - 2002. -22 avqust

* * *

Mircəfərin bacısı nəvəsi (Seyid Məsmənin nəvəsi) Məmmədtağı Bağırovla söhbət edib, bəzi qarışıq mətləblərə aydınlıq gətirə bildim.

Mircəfərin əslini araşdıranlar ona gah şahsevənli, gah da qeyri-türk deyirdilər. Yəqin qanlı hökmdar simasına görə.... Amma Manaf Süleymanovun “Lahıc” etnoqrafik kitabından oxuyuram: “Zəvəroda yaşayan seyidlər nəslinin Şamaxı və Qubada əqrəbaları yaşayırdı... Ağa Seyid Əli Şamaxıda, Ağa Mir Bağır Qubada... 30-cu illərə qədər əlaqələri vardı”. Ağa Mir Bağır isə Mircəfərin dost-doğma babasıdır. Mircəfər Quba seyidlərindəndir.

**Mahirqızı V. Qalxın, Mircəfər gəlir! Mircəfərin bacısı nəvəsi Məmmədtağı Bağırov Xaçmazdan “Bu gün”ə gəlmişdir.** //Bugün-1998-13dekabr

* * *

Hazırda Quba şəhərində Mir Cəfər Bağırovun dünyaya gəldiyi, boya-başa çatdığı ev durur. Onu ev-muzeyə çevirmək bütün xalqımızın işidir, ilk növbədə qubalıların müqəddəs vəzifəsidir!

Mir Cəfər Bağırovun valideyinləri və yaxın qohumları Quba şəhər qəbristanlığında basdırılmışlar. Atası Mir Abbas Hacı Mir Bağır oğlu 1902-ci ildə, anası Yaxşıxanım 1920-ci ildə vəfat etmişdir.

Mir Cəfər ocağın sonbeşiyidir. Onun özündən böyük üç qardaşı və iki bacısı olmuşdur. Böyük qardaşı Mir Musa 1939-cu ildə, ortancıl qardaşı Mir Heydər 1922-ci ildə, üçüncü qardaşı Mir İbrahim 1943-cü ildə vəfat etmişdir. Böyük bacısı Seyid Məsumə 1947-ci ildə kiçik bacısı Seyid Fatimə 1960-cı ildə dünyasını dəyişmişdir.

Hazırda Xaçmaz şəhərində yaşayan, M.C.Bağırovun böyük bacısı Seyid Məsumənin nəvəsi Məmmədtağı Bağırov ulu nəslin şəcərəsini özündə əks etdirən tarixi sənədi ərəbcədən rəsmi tərcümə etdirmişdir.

Bu sənəd 1815-ci ildə Qum şəhərində tərtib olunmuşdur. Bu rəsmi sənəd sübut edir ki, Mir Cəfər Bağırovun nəsl şəcərəsi Həzrəti Əli və Həzrəti Fatimənin övladlarından başlayır.

Peyğəmbər və İmam adlarını daşıyan ulu nəslin estafeti yenə Seyid əlindədir. Mir Cəfər Bağırovun oğul nəvəsi babasının adını daşıyır: Mir Cəfər

**Qurban T.Mir Cəfər və ... Mir Cəfərzadə** //Vəhdət - 2004 -15 aprel

* * *

## BISMILLAHI RƏHMANI RRƏHİM

Həmd olsun Allaha ki, gizli qalmaqla ən böyük haqq olmuşdur, qəlp olan şeyləri məhv etmiş, aşkar şeyləri bəyan etmişdir, şərəfli insanlara onların əsli və nəsəblərinə görə şərəf vermiş, onların əslini və şan-şöhrətini seçib fərqləndirmişdir, seçmə insanları ədəb fəzilətinə görə ayırd etmişdir. O əbədi və yeganədir, nə doğmamış, nə doğulmamışdır, ona şərik ola biləcək heç bir qüvvə yoxdur. Onun haşimi əsilli, İbn Eyhəmi zatlı, İsmayıl köklü, ən şöhrətli, ərəblərin və əcəmlərin seyyidi (ağası) olan Rəsuluna və onun ailəsinə salavat və salam olsun. Həqiqətən onu Allah-taala Adəm övladı içərisindən seçib ayırmışdır. İlahi Nəbimizi və onun ailəsini, onun nəcib xələflərini hifz etsin, hansı ki, onları Allah çətin vəziyyətdən qurtarmış, ən pak insan etmişdir, hansı ki, onlar xilas ipindən yapışıb xilas olmuşlar və sönüb getmirlər. Onlar artıq böyük zəfər qazanmışlar. Onları sevməyənlərə de ki, anan səni doğmaqla sənə xəyanət etmişdir. Onlar insanların hamısından əvvəl Allaha ləbbeyk demişlər, dini hər şeydən uca tutmuş, onu qurmuşlar, şirki dəf etmiş, özlərini pərvanə kimi fəda etmişlər, Allahı sevənlərin

öründə getmiş, küfrü məhv etmişlər. Hamının mövla və mövlanası Əli İbn Əbu Talib - ali salavat - onun əslində istiarə nəsəbi vardır. Siz onu gördüyü işlərə görə qınamayın. Onun atasının evinin divarları qısa olmuşdur. Bu sənədin yazılmasının məqsədinə gəlincə isə: bu vəsiqəni yazmaqdan məqsəd budur ki, həqiqətən bu sənədin sahibi nəsldən-nəslə hörmətli və əsli-nəsəbli seyidlərdən olub, nəsli davam etdikcə də hörmət sahibi olmalıdır. Belə ki, onların nəsli aşağıdakılardar ibarətdir:

Seyid Məhəmməd ibn Hacı Seyid Həsən ibn Seyid Əli ibn Seyid İbrahim ibn Seyid Əhməd ibn Seyid Hüseyn ibn Seyid Qafur ibn Seyid Bağır ibn Seyid Şəfi ibn Seyid Mahmud ibn Seyid Cəfər Bəhreyni.

Yuxarıda göstərilən şəxslər həqiqətən seyidlər nəsli olmuşdur. Bu vəsiqəni Kərbəla, Nəcəf və Bəhreyn alimləri təsdiq edib, sahibinə verdilər. Həmin adamların əsli-nəsəbi isə cənabi - Musa ibn Cəfər Məhəmməd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu-Talibə (onlara salam olsun) çatır. Bunlar da şiə təriqətinin dindar şəxsləri olmuşlar. Vəsiqə yazıldı 1231-ci ildə (1815-16).

Möhür: Məhəmməd Rəbi əl-Hüseyni

Vəsiqənin yuxarı hissəsində olan möhürlər:

Məhəmməd Rəbi əl-Hüseyni

Abdullah əl-Hüseyn

İbrahim əl-Hüseyni

Mahmud ibn Qulam

Mühibbullah

Əbdussəməd Həmzə

Tərcüməni Əlyazmalar İnstitutunun elmi işlər üzrə müavini, filologiya elmləri namizədi

Adilov Məmməd Musa oğlu etmişdir.

* * *

**O dərdi adamın üzündən oxuyurdu**

Bağırov Teyyibə Mir İbrahim qızı, 1926-cı ildə Qubada anadan olub. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirib. Bu yaxın zamanlara qədər M.C.Bağırovun yeganə sağ qalan doğmalarından idi. Bir müddətdir ki, əbədiyyətə qovuşub. Bu müsahibəni isə onun sağlığında 1992-ci ildə götürmüşəm. Olduğu kimi kitaba daxil edirəm.

- Teyyibə xanım, Bağırovlar nəsli haqqında nə deyə bilərsiniz?

- Nəslimiz Seyid nəslidir. Ulu babamız Hacı Mir Bağır mömin kişi olub. Ulu nənəmiz Hacı Fatmanisə isə dövrün ziyalı qadınlarından sayılıb. Babam Mir Abbas və nənəm Yaxşıxanım çox zəngin olmasa da ortabab yaşayıblar. Əmim haqqında gedən yazılarda tərcümeyi-halında bəzi səhvlərə yol verilir.

- Bu, Mir Cəfər Bağırov haqqında əldə kifayət qədər məlumatın olmamasından irəli gəlir.

- Oğul, atalar demişkən, gəl şərti şumda kəsək. Əmim 22 il xalqa rəhbərlik eləmiş Mir Cəfər Bağırov xalq üçün kimdirsə, onu deyə bilmərəm. Ancaq o, mənim üçün əziyyətimi çəkmiş, ata əvəzi əmimdir. Bir də ki, mən siyasət adamı deyiləm.
Siyasətlə işim yoxdur. Mən Sizə yalnız onun adamlarla və ailədə münasibəti, şəxsi keyfiyyətləri barədə danışacağam.

- Oldu. Babanızın neçə övladı olub?

- Dörd oğlu, iki qızı olub. Böyük oğlu Mir Musa xaricdə təhsil alıb, yüksək savadlı ziyalı olub. Onların ardınca mənim atam Mir İbrahim, inqilabdan əvvəl Zaqafqaziya dəmiryolunun rəisi, inqilabdan sonra ta ömrünün axırına kimi "Azneft"də işləyib.

Sonra olub Seyid Fatma. Onun haqqında çoxlu söz-söhbətlər, şayiələr gəzir. Əmimin hakimiyyətdə olduğu vaxtda, guya o fironluq eləyib, küçədən keçənə xalça palazını təmizlətdirib, raykom katiblərinin arvadlarına iş gördürüb. Bunlar tamamilə səhvdir. Birinci, Seyid Fatmanın evində çoxlu qulluqçuları olub. Ev süpürəni, xörək bişirəni, hamısı ayrı-ayrı adamlar idi. Bu da əmimə görə deyil, həyat yoldaşı Həsən bəyin hesabınaymış. Onun Quba-Xaçmaz tərəflərdə zəngin əmlakı varmış. Sovet hakimiyyətinin ilk günlərindən bolşeviklərə tabe olub. Nə isə, Seyid Fatmadan sonra Mir Heydər ruhani təhsil alıb, cavankən rəhmətə gedib. Evin son beşiyi Mir Cəfər əmim olub.

- Əminizin təhsili barəsində nə deyə bilərsiniz?

- Düzü bilmirəm. Ancaq onu bilirəm ki, Qubada müəllimlik edib, onun dərs dediyi məktəb və tələbələrdən bu gün də durur.

- Əminizin siyasi fəaliyyəti haqqında yəqin ki, xəbəriniz olmamış olmaz.

- Əmimin inqilabi işlərdə iştirak etdiyini bilirəm. Ancaq necə və hansı şəraitdə, bunu bilmirəm. Ağsaqqallar Qubada bu gün də danışırlar ki, siyasi işlərinə görə əmimi aradan götürmək planlaşdırılıbmış, lakin qurulan tora dayımız Hacağa düşür. Onu vururlar.

- Eşitdiyimə görə o üç dəfə ailə qurub.

- Elədir. Onun birinci nişanlısı qubalı Mələkxanım adlı göyçək bir qız olub. Lakin o soyuqdəymədən rəhmətə gedib, Əmim siyasi işi ilə əlaqədar Həştərxana gedir. Oradan Məryəm adlı tatar qızı gətirmişdi. Ondan Cahangir adlı bir oğlu var idi. Məryəm rəhmətə gedəndən sonra ikinci dəfə - yəhudi qızı ilə evlənib. Ondan Cen adlı oğlu var, arvadı və oğlu sağdırlar. Hal-hazırda Moskvada yaşayırlar.

- Yazıçı Manaf Süleymanovun yazdığına görə əminiz Cahangiri cəzalandırıb, müharibəyə göndərib.

- Düzü onu cəzalandırıb müharibəyə göndərdiyini bilmirəm. Ancaq Cahangirlə bağlı bir — neçə epizodu danışmaq - yerinə düşərdi. Müharibənin

ortaları idi. Bir də Qubada eşitdik ki, Cahangir yaralanıb gəlibdir. Bibilərim, atamın əmisi Bakıya onunla görüşməyə gəldik. Qolundan yaralanmışdı. Oturub söhbət elədik. Gedəndə Cahangir bizi ötürməyə qalxdı, həyətdən çıxanda soruşdum: "Atanın yanında xəbər ala bilmədim, yaran necədir?", "Hələ yaxşı sağalmayıb, ancaq tezliklə müharibəyə qayıtmalıyam" — dedi. Bundan nə qədər keçdi, deyə bilmərəm. Bir də xəbər gəldi ki... (ağlayır), Mən dəfn günü çata bilmədim. Üçündə başsağlığı verməyə gəldim.

- Dəfninin təşkili barəsində yəqin ki, xəbəriniz var. Orada Bağırovun özünü necə aparmağı bizin üçün maraqlıdır.

- Cahangirin tabutunun üstündə yazıblarmış ki, "açmayın". Tabut gətirilən kimi qohum-əqraba göz yaşı tökürmüş. Əmim tabuta yaxışlaşıb və üzünü ağlayanlara tutur: "Niyə ağlayırsınız, ağlamayın. Mənim oğlum Cahangir xalqın oğludur, xalqın yolunda qurban gedib". Bibim danışırdı ki, əmim ağlamayın desə də, o günü hamıdan çox ağlayıb. Bibim Ağdamdan gəlibmiş. Biz hamımız onun xətrini çox istəyirdik, ərini erkən itirmişdi. "Hamımız ona "məmə" deyirdik. Əmim üzünü ona tutub deyir: "məmə" oxşamanı özün de, bütün gedib gəlməyənlərə, içində də Cahangir olmaqla". O da dil deyib ağlayır...

Cahangirin və anasının qəbri Bakıdadır. Anamın sağlığında vəsiyyət eləmişdim ki, mən öləndə Cahangirin yanında dəfn etsinlər. Axı, mənim qardaşım, onunsa bacısı yoxdur. Onun yanında boş torpaq var. Bir də Cahangirin burada kimi qalıb? Qardaşıdır, o da Moskvada. Deyirəm heç olmasa nəvə-nəticələrdən mənim üstümə gələn olsa, ona da fatihə versinlər.

**Haşiyə:** Cahangir Mir Cəfər oğlu Bağırov 1919-cu il oktyabrın 6-da doğulub. 1943-cü ilin iyun ayının 5-də Böyük Vətən müharibəsində həlak olub.

**Qeyd:** bu xatirə yazısı M.C.Bağırovun əmisi qızı Teyyibə Bağırovanın (1926-1996) 1993-cü ildə indiki "Şərq" qəzetinin baş redaktoru, gənc jurnalist Akif Aşırlıya verdiyi müsahibə əsasında qələmə alınmış və sonralar BDU-nun tarix fakültəsinin bir tələbəsi tərəfindən diplom işinə daxil edilmişdir.

* * *

**Soruşun cavab verək**

**Hörmətli "Molla Nəsrəddin". Möhtərəm Əzim İsmayılbəyli**

Salam və ehtiramdan sonra bildirirəm ki, məcmuənizin daimi oxucusuyam. Hər sayınızı səbirsizliklə gözləyirəm. İlk dəfə Mir Cəfər Bağırov haqqında həqiqətləri məcmuənizdə oxuduğuma görə bir daha Sizə müraciət etməyi qərara aldım. M.C.Bağırovun söykökü, əsli-nəcabəti, fəaliyyət dairəsi, bir sözlə tərcümeyi-halı barədə qısa məlumat verməyinizi xahiş edir və qabaqcadan təşəkkürümü bildirirəm.

**Hörmətlə: Əli Müsəllimoğlu, Msxeta rayonu, Sixiziri kəndi**

* * *

## O, BÖYÜK NÜFUZ SAHİBİ, SÖZÜ ÖTƏN ŞƏXSİYYƏT İDİ

"1943-1944-cü illərdə iki dəfə Azərbaycanın butünlüklə köçürülməsi barədə Siyasi Büronun müdhiş qərarını və bu qərarın layihəsini şəxsi nüfuzu ilə ləğv etdirən Mir Cəfərin xidmətini tarixin unutmağa haqqı varmı?"

**Azad Nəbiyev,** *professor.*

**"Azərbaycan" qəzeti, 25 aprel 2000-ci il.**

* * *

Əzizimiz, Əli qardaş! Sizin sorğunuza dəqiq cavab vermək öncə tarixşünas və etnoqraf alimlərin, həmçinin digər mütəxəssislərin işidir.

Bəlkə də bunun üçün arxiv materiallarını araşdırmaq lazım gələcək. Ancaq bilgimiz baxımından onu deyə bilərik ki, Mir Cəfər Bağırovun soy kökü, yəni nəsli qədim Şirvanın Şamaxı qəzasına daxil olan Lahıc qəsəbəsindədir. Əsli-nəsibi dini etiqada görə ağır seyid nəslindəndir, yəni müqəddəs insanlardır. Hazırda Lahıcda ziyarətgaha çevrilmiş Mir Seyid Cavad ağanın qəbri buraya axışıb gələn zəvvarların, bir növ, həcc ziyarətini xatırladır, bu müqəddəs şəxs M.C.Bağırovun doğmaca bibisi övladıdır. Qəsəbədə xeyirxah əməlləri ilə həmyerlilərinin böyük rəğbət və ehtiramını qazanmış Mir Sadıq Mir Damət oğlu Sadıqov da həmin nəsildəndir. Bu nəslin yetirmələri Azərbaycanın Gəncə, Quba, Xaçmaz, Şamaxı, Ağdam, Göyçay, Şəki, İsmayıllı, Dağıstanın Dərbənd, Gürcüstanın Marneuli rayonun Sadıxlı, Saqareco rayonun Qombori və digər bölgələrdə məskunlaşaraq digər soyadları ilə yaşasalar da seyid ocağı kimi tanınırlar.

Mir Cəfərin fəaliyyət dairəsinə gəlincə açıqlamalıyıq ki, 1923-cü ildən 1953-cü ilədək məsul və rəhbər vəzifələrdə çalışarkən qaçaq-quldur dəstələrinə qarşı mübarizədən başlayaraq kollektiv təsərrüfatların yaranmasınadək şanlı yol keçmişdir. Hərbi Şuranın üzvü kimi İkinci dünya savaşındakı misilsiz xidmətindən söz açmazdan öncə Azərbaycan xalqını sürgündən xilas edilməsində göstərdiyi şəxsi şücaətini aşağıdakı dəlillərlə tənləşdirək:

1944-cü ildə Lavrenti Beriyanın İosif Stalinə vurduğu teleqramlardan sətirlər: "Çeçen və inquşların köçurülməsi əməliyyatının nəticələri haqqında məlumat verirəm /.../. 29 fevrala kimi köçürülüb və tərkibində 91250 nəfər inquş olan 428479 nəfər adam dəmiryol eşalonlarına doldurulmuşdur. Artıq 180 eşalon adamla doldurulmuş və onlardan 159 eşalon yola salınmışdır. Bu gün eşalonlarla icra rəhbərləri və Çeçen-inquşetiyanın hörmətli dini ali ruhaniləri yola salınmışdır. Bunlar köçürülmə əməliyyatında istifadə edilmişlər... Əməliyyat nizamlı keçdi və ciddi müqavimətə rast gəlmədik /.../."

“7 mart 1944-cü il. L.Beriya — İ. Stalinə: “Əməlliyyatların aparılmasında NKVD zabiti və əsgərləri iştirak etmişdir. Və yaxın günlərdə balkarların köçürülməsində iştirak edəcəklər.” İzahata ehtiyac olmayan bu cür acınacaqlı faciə azərbaycanlıları da gözləyirdi və artıq eşalonlar Bakıya sarı yola salınmışdır...

Belə vəziyyətdə M.C.Bağırov dərhal Moskvaya uçaraq köhnə çekis fəndi ilə özünü Stalinin qəbuluna salır. Və ilk sozü bu olur:

— Yoldaş Stalin, mənə etibar edirsənmi?

— Əlbəttə, etibar etməsəydim o boyda Azərbaycanın taleyini sizə tapşırmazdım?!

— Elə isə mənim xalqıma da etibar et! Biz həmişə Sizinlə, rus xalqı ilə birlikdəyik!

Stalin həmin axşam Siyasi Büronun İclasını çağıraraq azərbaycanlıların koçürülməsi barədə qərarı ləğv etdirir.

M.C.Bağırov qərar ləğv olunmayanacan Kremli tərk etmir...

...Lahıclılar elə qədimdən qədim elatdır ki, keçmiş “Sovetlər”dən yalnız bizim eloğlu Nadir İbrahimovun Marsda adına bürc, necə deyərlər, “imzası” var! Elə bir imza ki, Mir Cəfər Bağırovun tarixə atdığı imza kimi nə silinən, nə də unudulandı. Şəxsiyyətlərin böyüklüyü ondadır ki, tarix kitabları və mətbuatdan, hətta divarlardan adları pozulsa da, təki qəlblərdən silinməsinlər. Mir Cəfər Bağırov kimi həmyerlilərin...

Şəcərəmizə gəlində, qeyd etməliyəm ki, Mir Cəfərin atası Seyid Abbasın bacısı Mir Səidənin döşündən halal süd əmmişlərik. Ailənin bir övladı arasında seçilən atam Mirdamət olub ki, onun da adını oğlum Mirdamət daşıyır. O, Mirdamət Sadıqov ki, iqtisad elmləri doktoru, professor kimi Azərbaycan İqtisadiyyat İnstitutunun prorektoru vəzifəsində çalışır və Mir Cəfərin bibisi nəvəsi düşür. Bu seyid övladının qardaşı nəvəsi sayılan Hüseyn Bağırov isə Ekologiya və təbii sərvətlər naziridir respublikamızda. Vaxtilə Qubadan köçürülərək Xaçmazda yurdlaşan Məmmədtağı, Mirmehdi və onlarca başqaları Mir Cəfərin bacısı nəvələridir. Həmin ulu babanın Cendən olan yeganə oğul nəvəsi Mir Cəfər Kanadada təhsilini davam etdirir... Bu seyid ocağının kökünü üzə çıxarıb şəcərənin salnamələşdirmək tarixçi və etnoqrafçı alimlərin işidir. Mənə gəlincə vurğulamalıyam ki, nə yaxşı ki, həmyerlimiz Əzim İmsayılbəyli və onun nəşr etdiyi “Molla Nəsrəddin” məcmuəsi varmış. Yarandığı gündən M.C. Bağırov haqqında yalnız və yalnız həqiqətləri söyləyir. Daha bəzi başabəla “curnalistlər” kimi bu görkəmli fenomeni gah Quba yəhudisi, gah da dərbənd ləzgisi saymır. Düşünmürlər ki, ləzgidən mürud, yəhudidən baqqal çıxar, Seyid yox!

Bu mövzuda hələ çox araşdırmalar aparılacaq, hələ çox yazılacaq deyə, söhbətimə yekun vurub bildirirəm: “Həqiqət nəzilər, üzülməz!” söyləmişlər ulularımız!

Sadıqov M. həqiqət nəzilər, üzülməz! //Molla Nəsrəddin (Tiflis)-2002. -№10-13. s.21.

Müqəddəslər demişkən Zaman hər cür çətin məsələni özünəməxsus ustalıqla həll edir, yaxşını da, pisi də tam-dürüst seçir, saf-çürük edir, hər şeyin və hər kəsin həqiqi qiymətini verir və bundan sonra lazım bildiyini yaşadır. Zaman tarixi öz əli ilə qurub-yaradır, istədiyini yaddaşlarda və xatirələrdə əbədiləşdirir. Belələrinə tarixi şəxsiyyət deyirlər, onları bütün bəşəriyyət öz doğma övladı hesab edir, belə şəxsiyyətlər heç zaman ölmür, bir-birini əvəz edən qədirbilən nəsillərin nəcib və xeyirxah əməllərində daima yaşayırlar! Tarixin nadir fenomenləri içərisində özünəməxsus yer tutan Mir Cəfər Bağırov da məhz belə şəxsiyyətlərdəndir. Şükürlər olsun ki, onun özü kimi nəsli və tarixi şəcərəsi bu gün də yaşayır və gəncləşir. Böyük həyat davam edir...

*Yığılmağa verilmiş 16.02.2007.*
*Çapa imzalanmış 18.04.2007.*
*Şərti çap vərəqi 9. Sifariş № 88.*
*Kağızformatı 60x84 1/16. Tiraj 300.*

*Kitab **“Nurlan”** nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor: **prof. N.B.Məmmədli***
***E-mail nurlanl959@yahoo.**com*
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*